# Ramazan bayramınız mübarək!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 74 (30478) 10 aprel 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Prezident İlham Əliyev Ramazan bayramı ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında Ramazan bayramı ilə əlaqədar paylaşım edib.

Paylaşımdakı fotonun üzərində qeyd edilib: "Ramazan bayramınız mübarək!".




# Bölgələr tərəqqinin ön mövqeyinə çıxır

*Prezident İlham Əliyevin Hacıqabul, Gəncə və Qəbələyə səfəri*

## Hacıqabulda yeni avtomobil yolu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Hacıqabul rayonunda olub.**



Dövlətimizin başçısı Hacıqabul rayonu Muğan–Birinci Paşalı–İkinci Paşalı–Şorbaçı–Birinci Udullu–Tağılı–İkinci Udullu–Qubalı avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə əsaslı şəkildə yenidən qurulan yol rayonun 8 yaşayış məntəqəsini birləşdirir. Uzunluğu 39 kilometr olan iki hərəkət zolaqlı avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun inşa edilib.



Yolun qabarmış və çökmüş hissələrinin qazılaraq çıxarılması, torpaq yatağının qaldırılması, genişləndirilməsi, kipləşdirilməsi və müəyyən hissələrdə 10 metrə qədər genişləndirilməsi işləri görülüb.

Marşrutboyu yararsız hala düşmüş müxtəlif diametrli suötürücü borular yeniləri ilə əvəz edilib və zəruri olan yerlərdə müxtəlif diametrli yeni dəmir-beton suötürücü borular quraşdırılıb. Bununla yanaşı, Udullu kəndi ərazisində Pirsaat çayı üzərində yerləşən, artıq istismar müddətini başa vurmuş mövcud metal körpünün əvəzində üçaşırımlı yeni dəmir-beton körpü inşa olunub.

Görülən işlər nəticəsində 12 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşınması asanlaşıb.

Əsaslı yenidən qurulan avtomobil yolu əhatə etdiyi yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında, eləcə də insanların həyat tərzinin və rifahının yüksəlməsində mühüm əhəmiyyət kəsb edəcək.

## "Agro Dairy" MMC-nin suvarma qurğuları kompleksi



**Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hacıqabul rayonunda "Agro Dairy" MMC-yə məxsus 4200 hektar torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış olub.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov və "Agro Dairy" MMC-nin icraçı direktoru Niyazi Əmirbəyov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdilər.

Qeyd edək ki, Azərbaycan Prezidenti əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əkin dövriyyəsinə əlavə torpaqların cəlb olunması işlərinin davam etdirilməsi və bu istiqamətdə yeni layihələrin hazırlanması məqsədilə 2021-ci il mayın 29-da Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq Hacıqabul rayonu ərazisində "Agro Dairy" MMC-yə məxsus torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün Kür çayının Sabirabad rayonundan keçən hissəsində sərfi saniyədə 3 kubmetr olan 4 aqreqatlı üzən nasos stansiyasının, boru kəmərinin və dəmir-beton kanalının tikintisinə başlanılıb.

Azərbaycan Prezidentinin 2022-ci il fevralın 10-da imzaladığı Sərəncamına əsasən isə üzən nasos stansiyası (I pillə), uzunluğu 4350 poqonometr olan basqılı metal boru kəməri, uzunluğu 7012 poqonometr olan dəmir-beton üzlüklü açıq kanal, kanalın sonunda su tutumu 5 min kubmetr olan hovuz, sərfi saniyədə 3 kubmetr olan II pillə stasionar nasos stansiyası və uzunluğu 6918 poqonometr olan basqılı metal boru kəmərinin tikintisi və nasos stansiyasının xarici elektrik təchizatı işləri başa çatdırılıb.

Prezident İlham Əliyevə Hacıqabul suvarma layihəsi barədə də məlumat verildi. Qeyd edildi ki, layihə çərçivəsində 2022-ci ildə 2555 hektar sahənin suvarılması təmin olunub. Layihənin gələn il 1225 hektar sahədə də həyata keçirilməsi nəzərdə tutulur.

Həmçinin bildirildi ki, ötən ilin sonunda intensiv suvarma sahələrinin ərazisi 19 min 200 hektara, pivotların sayı 296-ya çatdırılıb, 4 toxum emalı kompleksi yaradılıb. Qarabağ regionu üzrə 2020-ci ildən təhkim olunmuş ərazilərdə 27 min 107 hektar, 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində azad edilmiş Xocalı, Ağdərə və Xocavənd rayonlarında 11 min 276 hektar ərazidə yazlıq və payızlıq əkin işləri aparılıb.

Məlumat verildi ki, 2021–2023-cü illərdə 600-dək yerli fermer və sahibkar üçün müasir aqrotexniki torpaq becərilməsi üzrə təlimlər, "açıq qapı" günləri, tələbələr üçün təcrübə proqramları, universitetlərdə mühazirələr, eləcə də karyera günləri təşkil edilib.

## Qardaşlığın Ramazan təbrikləşməsi



**Aprelin 9-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Türkiyə Prezidenti dövlətimizin başçısını Ramazan bayramı münasibətilə təbrik edib, xalqımıza firavanlıq arzularını çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində Rəcəb Tayyib Ərdoğanı bayram münasibətilə təbrik edib, Türkiyə xalqına əmin-amanlıq arzulayıb.

Dövlət başçıları telefon söhbəti zamanı Azərbaycan–Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin gələcəkdə də bütün sahələrdə inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildiriblər, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## 11 ayın sultanı – paklıq, iman bayramı




Səhifə ⇨ 9


## ...Gündəlikdə səkkizinci variantdır

*İrəvan Bakının sülh sazişi ilə bağlı son təkliflərinə cavab verib*

**Deyəsən, Ermənistan və Azərbaycan arasındakı sülh danışıqlarının növbəti və sonuncu raundu uzaqda deyil. Bunu deməyə əsas verən, ilk növbədə, Nikol Paşinyan hökumətinin Bakının sülh sazişi ilə bağlı səkkizinci təkliflər paketi ilə bağlı verdiyi açıqlamadır.**

Həmin təkliflər paketi bu ilin fevralında qarşı tərəfə çatdırılmış və fevral ayının 21-də Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan açıqlama vermişdi. Dünən isə Ermənistan xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyan jurnalistlərə məlumat verib ki, söhbət iki ölkə arasında "sülh müqaviləsi" layihəsinə dair təkliflərin səkkizinci variantından gedir.


**(ardı 5-ci səhifədə)**


Qarabağdan anons

# Azərbaycanın Səməndər quşu

## Külə döndüyü ocaqda yenidən dirilən şəhid Xocalı

**Əfsanəvi Səməndər quşu barədə rəvayətlərin hamısında Xeyir qüvvələri təmsil edən bu möcüzəli qanadlını Şər qüvvələr oda atsa da o hər dəfə diriliərək, alovlaradan sıyrılıb yenidən öz yuvasına dönür. 32 il əvvəl soydaşlarımızın qanına susamış quduz erməni millətçilərinin gecənin qaranlığında nəhəng tonqala çevirərək, yer üzündən sildikləri, uşaqlı-qocalı, qadınlı-kişili oda atdıqları şəhid şəhərimiz Xocalı ötən dövrdə Səməndər quşu taleyi yaşayan, nəhayət, üzüntü və nisgillərimizi toy-bayrama çevirən bir müqəddəs ünvandır.**




Bugünlədə bir neçə minillik mədəniyyətin varisi olan Xocalının bir qərinəlik külünün üstündə yenidən dirçəldilib kərpic-kərpic ucaldığını görəndə, istər-istəməz, xalqımızın Xeyirin məğlubedilməzliyinə mütləq inamını təcəssüm etdirən bu əfsanəvi süjet yada düşür. Son 36 il müddətində Qarabağı yerüstü cəhənnəmə çevirmiş Xankəndi xuntası 6 ay əvvəl birdəfəlik darmadağın edilib ölkəmizdən qovulandan sonra bu ərazidə ilk dirçəldilən məntəqələrdən olan Xocalıda indi qalib Azərbaycanın günü-gündən daha güclü vuran nəbzi təntənə ilə döyünür.

Yenidən "dirilən" Xocalıda aparılan müasir, sürətli və geniş tikinti-quruculuq işlərinin bir diqqətçəkən əlaməti burada çalışanların ölkəmizin bütün bölgələrinin dəmir biləkli oğlanlarından ibarət olmasıdır...

Birinci və İkinci Qarabağ müharibəsində savaşmış xeyli qazinin şəhid şəhərin "dirildilmə"sini düşmənlə döyüşün davamı adlandırması və burada xüsusi fədakarlıqla çalışması da qabarıq nəzərə çarpır...


**(ardı 7-ci səhifədə)**

# Gəncədə Ulu öndərin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə şəhərində səfərdə olub.**

Dövlətimizin başçısı əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

# Qədim şəhərdə Ekoloji Park Kompleksi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə şəhərində Ekoloji Park Kompleksinin tikintisi ilə tanış olub.**



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Qərb bölgəsində ilk dəfə Gəncə şəhərində salınan Ekoloji Park Kompleksinin tikintisinə və onun ətrafında abadlıq işlərinə 2021-ci ilin dekabrında başlanılıb. Gəncəçay çayının sağ sahilində yerləşən kompleks 11 hektar ərazini əhatə edir.

Unikallığı ilə seçiləcək kompleksdə insanların rahatlığı və asudə vaxtlarını daha səmərəli keçirmələri üçün bütün lazımi şərait yaradılır. Kompleksə sahəsi 1285 kvadratmetr olan ikimərtəbəli oranjereya binası daxildir. Binanın əsas hissəsi dəmir-beton, metal və şüşə-vitraj konstruksiyalarla yığılıb. Fərqli dizaynı ilə seçilən kompleksdə turistlərin rahatlığı üçün bütün şərait yaradılır. Burada bütün fəsillərdə müxtəlif növ nadir gül-çiçək, kol bitkiləri, eləcə də ağac tingləri yetişdiriləcək. Bu işi həyata keçirmək üçün oranjereya binasının daxilində bitkilərin normal inkişafını təmin edəcək xüsusi havalandırma sistemləri quraşdırılıb. Hazırda binada 7 növ ağac, 16 növ gül, 8 növ kol, 9 növ isə kaktus bitkisi əkilib.





Ekoloji Park Kompleksinin ərazisində əyləncə mərkəzlərinin, idman qurğularının, iaşə obyektlərinin yaradılması da planlaşdırılıb. Buraya gələn ziyarətçilər, həmçinin müxtəlif növ gül-çiçək, kol bitkiləri, eləcə də ağac tinglərinin yetişdirilməsi işləri ilə tanış ola biləcəklər.

Kompleksin ərazisində yeni yollar çəkilib, avtomobil dayanacağı salınıb, müasir işıqlandırma standartlarına uyğun işıqlandırma sistemi quraşdırılıb, yağış və damcı suvarma sistemləri ilə təchiz olunmuş istixanalar tikilib. Ekoloji Parkın Gəncə çayı tərəfdəki ərazisində yüzlərlə sərv ağacı əkilib, binanın ətrafına isə mozaika daşları döşənib.

Kompleksdə son tamamlama işləri həyata keçirilir.

# Nizami yurdunun müasir idman sarayı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə İdman Sarayının açılışında iştirak edib.**



Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına Gəncə İdman Sarayında yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, uzun illərdir ölkəmizdə Olimpiya və idman hərəkatı geniş vüsət alıb. Ötən illərdə Azərbaycanda onlarla Olimpiya İdman Kompleksi və digər idman qurğuları tikilib. Bu isə ölkəmizdə idmana marağı artırıb, gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar yaradıb. Gəncədə istifadəyə verilən İdman Sarayı da bu qəbildən layihələr arasında xüsusi yer tutur.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən inşa edilən Gəncə İdman Sarayının tikintisinə 2018-ci ilin iyununda başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin martında tam başa çatdırılıb.

Gəncə İdman Sarayı müasirliyi ilə diqqəti cəlb edir. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan İdman Sarayında bütün zəruri infrastruktur yaradılıb. Böyük zalda beynəlxalq standartlara uyğun olaraq basketbol, voleybol, həndbol, minifutbol və atletika oyunlarının keçirilməsi nəzərdə tutulub. Bu zalda 2200 nəfərlik sabit oturacaq yeri olan tribuna, 850 nəfərlik mobil oturacaq və fiziki məhdudiyyəti olan tamaşaçılar üçün 20 yer ayrılıb. Burada, həmçinin VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələr və konfrans zalı yaradılıb.



Qeyd olundu ki, İdman Sarayındakı üzgüçülük hovuzu Beynəlxalq Üzgüçülük Federasiyasının standartlarına cavab verir. Hovuzun uzunluğu 50, eni 21 metr, dərinliyi isə 3 metrdir. Burada 4 metr, 2,2 metr və 1,2 metrə qədər qalxa bilən mobil hərəkətli döşəmə də quraşdırılıb. Zalda üzgüçülük yarışlarını 1400-dən çox tamaşaçı izləyə biləcək. Fiziki məhdudiyyəti olan tamaşaçı üçün isə 16 yerlik ərazi təşkil olunub. Üzgüçülük hovuzu da VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələrdən ibarətdir.

Gəncə İdman Sarayının kiçik zalı müvafiq olaraq 2, 3 və 4 yerə bölünmək imkanına malikdir. Burada ağır atletika, güləş, cüdo və boks zalları, müxtəlif təyinatlı otaqlar fəaliyyət göstərəcək və idmanın ayrı-ayrı sahələri tədris ediləcək.

Nəhəng idman qurğusunda Beynəlxalq İdman Atıcılığı Federasiyasının (ISSF) standartlarına uyğun atıcılıq zalı, həmçinin müxtəlif ölçülü yoqa, pilates, atletika, fitnes, bouling, masaüstü tennis, şahmat, kross-fit zalları, SPA mərkəzi, bilyard masası, uşaq otağı, 3 konfrans zalı, böyük restoran, kofe-breyk bölmələri və marketlər fəaliyyət göstərəcək.

Gəncə İdman Sarayının əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Səksən nömrəsi olan mehmanxanada 160 idmançının qalması və istirahəti üçün hər cür imkan var.

Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolaqları salınıb, istirahət guşələri yaradılıb, müşahidə kameraları quraşdırılıb.

Belə nəhəng idman qurğularının yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.



# Yeni stadionda təməlqoyma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə şəhər stadionunun təməlini qoyub.**



Dövlətimizin başçısına stadionda yaradılacaq şərait barədə məlumat verildi.

Bildirildi ki, 1959–1963-cü illərdə inşa edilən Gəncə şəhər stadionu 1964-cü ildə istismara verilib. Son illərdə stadionun tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından fəaliyyəti qismən həyata keçirilirdi. Stadionun ərazisində köməkçi məşq meydançaları və futbol akademiyası binası tikilib.



Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Sərəncamına əsasən, Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq bir milyon manat ayrılıb. Stadionun layihələndirmə işləri artıq başa çatdırılıb.

Yenidənqurma işləri çərçivəsində stadionun ərazisi genişləndiriləraq 10 hektara çatdırılacaq. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa ediləcək stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 464 yerlikdir. Stadionda VVIP, VIP, SKY-box, media nümayəndələri və fiziki imkanları məhdud tamaşaçılar üçün müvafiq sayda oturacaq sahələri, futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və sair zəruri sahələr nəzərdə tutulur. Eyni zamanda, layihəyə əsasən stadionun daxilində bilet satışı, eləcə də müxtəlif ictimai iaşə obyektləri, yerüstü avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri yaradılacaq. Stadion UEFA tələblərinə uyğun işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik, giriş-çıxış sistemləri ilə təchiz olunacaq. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq.

Prezident İlham Əliyev Gəncə şəhər stadionunun təməlini qoydu.

# Qəbələdə Ümummilli liderin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda səfərdə olub.**

Dövlətimizin başçısı İlham Əliyev ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

# Yeni mərkəzi xəstəxana





**Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 160 çarpayılıq Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.**

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, binanın inşasına 2016-cı ildə başlanılıb və tikinti işləri 2023-cü ildə başa çatdırılıb. Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 4,9 hektardır. Tibb ocağının altımərtəbəli əsas binası üç blokdan ibarətdir. Bu səhiyyə müəssisəsində terapiya, uşaq xəstəlikləri, nevrologiya, ümumi cərrahiyyə, ginekologiya, travmatologiya, LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, qəbul, laboratoriya, təcili tibbi yardım, doğum, doğuşdan sonrakı fizioloji şöbələr və hamiləliyin patologiyası şöbəsi də fəaliyyət göstərəcək.

Xəstəxana müasir tələblərə cavab verən tibbi avadanlıqla, o cümlədən maqnit rezonans tomoqrafiyası (MRT), çoxkəsikli kompüter tomoqrafiyası (KT), rəqəmsal stasionar ultrasəs müayinə cihazı, rəqəmsal teleskopik rentgen cihazı və rəqəmsal DR rentgen qurğusu ilə təchiz olunub.

Ərazidə əsas korpusla yanaşı, Gigiyena və Epidemiologiya Mərkəzi, Yoluxucu Xəstəliklər Korpusu, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbəsi üçün binalar tikilib.

Xəstəxananın həyətində geniş yaşıllıq zolağı salınıb.

Burada yaradılan şəraitdən görünür ki, vətəndaşların hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqətində və nəzarətindədir. Bu cür müasir səhiyyə müəssisəsinin istifadəyə verilməsi yalnız Qəbələ sakinlərinə deyil, bütövlükdə region əhalisinə hərtərəfli tibbi xidmət göstərməyə imkan yaradır.

# Pakistandan bayram təbriki

**Aprelin 9-da Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Pakistanın Baş naziri Ramazan bayramı münasibətilə dövlətimizin başçısını təbrik edib, xalqımıza firavanlıq arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib, öz növbəsində bayram münasibətilə Məhəmməd Şahbaz Şərifi təbrik edərək Pakistan xalqına ən xoş arzularını çatdırıb.

Prezident İlham Əliyev, eyni zamanda, Məhəmməd Şahbaz Şərifi yenidən Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə seçilməsi münasibətilə bir daha təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Pakistanın Baş naziri də İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə bir daha təbriklərini çatdıraraq, ona prezidentlik fəaliyyətində uğurlar diləyib.

Azərbaycan Prezidenti və Pakistanın Baş naziri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə edərək əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# "Hacıalılı" elektrik yarımstansiyası və Regional Təlim Mərkəzi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) 110/35/10 kV-luq "Hacıalılı" elektrik yarımstansiyasının və Regional Təlim Mərkəzinin açılışında iştirak edib.**





"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Qəbələ elektrik şəbəkəsi ümumilikdə 31 min 502 abonenti əhatə edir. ASC tərəfindən rayon ərazisində aparılan yenidənqurma işləri çərçivəsində Qəbələ şəhərinin, 2 qəsəbənin və 13 kəndin elektrik təsərrüfatı yenilənib. İstehlakçıların elektrik enerjisi təchizatının keyfiyyətinin yüksəldilməsi məqsədilə 110/35/10 kV-luq 26 meqavat-amperlik (MVA) "Hacıalılı" yarımstansiyasının gücü 41 MVA-ya çatdırılmaqla müasir tələblərə uyğun yenidən tikilib.

Dövlətimizin başçısına 2020–2023-cü illərdə paylayıcı şəbəkələrdə aparılan bərpa və yenidənqurma işləri, "Azərişıq" ASC tərəfindən tətbiq edilən yaşıl və innovativ texnologiyalar, eləcə də "100 Kənd" layihəsi üzrə regional şəbəkələrdə 150-dən çox yaşayış məntəqəsinin elektrik təchizatının yenidən qurulmasının texniki, iqtisadi və ekoloji səmərəliliyi barədə məlumat verildi. Qeyd olundu ki, paylayıcı şəbəkələrdə yaşıl və innovativ texnologiyaların tətbiqi, o cümlədən ikipilləli şəbəkələrin, mikrogünəş elektrik stansiyalarının, 3D-mobil xəritə, dron monitorinq, smart uçot sistemlərinin, kompozit şüşə lifli ekoloji təmiz dayaqların istifadəsi, habelə "100 Kənd" layihəsi üzrə görülən işlər təbii qaza qənaət edilməsinə, karbon dioksid emissiyasının azaldılmasına imkan yaradır.

"Hacıalılı" elektrik yarımstansiyasının qarşısında elektromobillər üçün "Azərişıq" tərəfindən iki enerjidoldurma stansiyası inşa olunub.

Diqqətə çatdırıldı ki, elektromobil enerjidoldurma stansiyalarının tətbiqi nəticəsində ildə 230 min ton karbohidrogen yanacağına qənaət edilməsi və 239 min ton karbon dioksid emissiyasının azaldılması mümkün olacaq.

Prezident İlham Əliyev "Hacıalılı" yarımstansiyasını işə saldı.

Yarımstansiyanın ərazisində Regional Təlim Mərkəzi də inşa edilib. Təlim Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz müasir şəbəkə poliqonu və "Yaşıl Enerji" təlim poliqonundan ibarətdir. Şəbəkə poliqonunda kompozit dayaqlar, optik-lifli 35 kV-luq və 0,4 kV-luq kabel xətləri, smart sayğaclar, SK-11 35-0,4 kV-luq şəbəkə idarəetmə sistemi quraşdırılıb. Poliqonda beynəlxalq peşə ustalığı yarışlarına hazırlıq üçün lazımi şərait yaradılıb. "Yaşıl Enerji" təlim poliqonunda isə Günəş və külək enerji mənbələri, "Azərişıq" ASC-nin Mobil Yaşıl Enerji Qurğusu layihələri üzrə təlimlər təşkil olunacaq.

Regional Təlim Mərkəzi, həmçinin digər müasir avadanlıqlarla da təchiz edilib, regional şəbəkələrin dispetçer idarəetmə sisteminə inteqrasiya olunub. Dispetçer idarəetmə sistemi mərkəzdən və müstəqil idarəetmə imkanlarına malikdir. Bundan əlavə, Mərkəzdə biri interaktiv olmaqla, iki müasir tədris otağı və tədbirlərin keçirilməsi üçün iclas zalı vardır.

# Böyük Pirəli–Kiçik Pirəli–Xırxatala–Cığatelli–Həmzəli avtomobil yolu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Ağdaş–Zarağan yolunun 40-cı kilometrliyindən başlayan Böyük Pirəli–Kiçik Pirəli–Xırxatala–Cığatelli–Həmzəli avtomobil yolunun açılışında iştirak edib.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan Prezidentinin 2021-ci il 17 may və 2022-ci il 2 fevral tarixli sərəncamları ilə Qəbələ rayonunda 17 minə yaxın əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən bu avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb. Tikinti işləri 2022-ci ilin sentyabrında başa çatdırılıb.

Məlumat verildi ki, dördüncü texniki dərəcəyə uyğun salınan iki hərəkət zolaqlı yolun ümumi uzunluğu 41 kilometrdir. Texnoloji ardıcıllığa uyğun olaraq lazımi hündürlükdə optimal qum-çınqıl qarışığından yol yatağının tikintisi, yola iki laydan ibarət yeni asfalt-beton örtüyünün döşənməsi işləri görülüb. İnşaat işlərinin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yol nişanları və məlumatverici lövhələr quraşdırılıb, nişanlanma xətləri çəkilib. Yol üzərində bir körpü salınıb, 18 avtodayanacaq yaradılıb.

Bu avtomobil yolunun tikintisi əhatə etdiyi 15 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə turizmin və kənd təsərrüfatının inkişafında, eləcə də insanların həyat tərzinin və rifah halının yüksəlməsində mühüm əhəmiyyət kəsb edəcək.

# Qəbələnin Bum qəsəbəsində yeni məktəb binası





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda 624 şagird yerlik Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib.**



Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, qəsəbədə 1983-cü ildə tikilmiş məktəb binasının müasir tələblərə cavab verməməsi və qəzalı vəziyyətdə olması yeni binanın inşası zərurətini yaratmışdı. Bum qəsəbə tam orta məktəbinin tikintisinə 2021-ci ilin dekabrında başlanılıb. Məktəb binası 26 sinif otağından, kimya, fizika və biologiya laboratoriyalarından, 2 informatika kabinetindən, 2 texnologiya otağından, gənclərin çağırışaqədərki hazırlıq kabinetindən, kitabxana, 195 yerlik akt zalı, idman zalı və 80 yerlik yeməkxanadan ibarətdir.

Yeni dövrün çağırışlarına uyğun olaraq, müasir məktəblərin qurulması Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Son 20 ildə Azərbaycanın mərkəzi şəhərlərindən tutmuş ən ucqar kəndlərinə qədər yaşayış məntəqələrində 3600 yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

***AZƏRTAC***

# “Yüksəliş” müsabiqəsinin qalibləri ilə görüş



**Ekologiya və təbii sərvətlər naziri, COP 29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev “Yüksəliş” müsabiqəsinin qalibləri ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan Respublikasının Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, “Yüksəliş” müsabiqəsinin təşkilat komitəsinin sədri Fərəh Əliyeva, energetika nazirinin müavini, COP29-un Azərbaycan üzrə baş icraçı direktoru Elnur Soltanov, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev, Milli Məclisin deputatı, COP29 üzrə BMT-nin İqlim Dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai, COP29-un gənc iqlim çempionu Leyla Həsənova da iştirak edib.

Görüşdə ölkəmizin bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıqla bağlı fikir mübadiləsi aparılıb.

Nazir COP29-un ölkəmizdə uğurla keçirilməsində “Yüksəliş” müsabiqəsi qaliblərinin prosesə cəlb edilməsinin əhəmiyyətini vurğulayaraq onları layihə təkliflərinin hazırlanması və icrasında yaxından iştiraka səsləyib, bu cür görüşlərin gələcəkdə də keçirilməsinin zəruriliyini vurğulayıb.

Qeyd edək ki, “Yüksəliş” müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

***XQ***

# İqtisadi Şuranın növbəti iclası



**Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə aprelin 8-də Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, iclasda makroiqtisadi və maliyyə sabitliyi sahəsində cari vəziyyət və siyasət istiqamətləri, o cümlədən pul siyasətinin əsas istiqamətləri, bank və sığorta sektorunun inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı, ərzaq təhlükəsizliyi, torpaqlardan səmərəli istifadənin və aqrar ixracın cari vəziyyəti, 2024–2030-cu illər üzrə çağırışlar və hədəflər, İslam maliyyəsi (bankçılığı) ilə bağlı görüləcək işlər, Gömrük Rəsmiləşdirilməsi Platformasında süni intellekt əsaslı Avtomatlaşdırılmış Risk Analiz Sisteminin tətbiqi barədə və digər cari məsələlər geniş müzakirə olunub.

İclasda Mərkəzi Bankın sədri Taleh Kazımovun, kənd təsərrüfatı naziri Məcnun Məmmədovun, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırovun və iqtisadiyyat nazirinin müavini Səməd Bəşirlinin məruzələri dinlənilib.

Sonda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

**XQ**

# Ceyhun Bayramov Qırğızıstanda



**Qırğız Respublikasının Prezidenti Sadır Japarov bu ölkəyə rəsmi səfəri çərçivəsində Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovu qəbul edib.**

Görüşdə Ceyhun Bayramov tarixi, mədəni və dini ortaqlıqları bölüşdüyümüz qardaş Qırğız Respublikası ilə ölkəmiz arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərinin günbəgün daha da güclənməsinin, həmçinin məzmunca zənginləşməsinin məmnunluq doğurduğunu vurğulayıb.

Ölkələrimiz arasındakı fəal siyasi dialoqun ticarət-iqtisadi, humanitar, mədəni, təhsil və digər sahələrdə ikitərəfli uğurlu əməkdaşlığımızı şərtləndirdiyi diqqətə çatdırılıb. Orta Dəhlizin tranzit imkanlarından Mərkəzi Asiya ölkələrinin, o cümlədən Qırğızıstanın faydalanmasının iki ölkə arasında iqtisadi əməkdaşlığın gücləndirilməsinə təkan verəcəyi qeyd olunub. Beynəlxalq və regional təşkilatlar, xüsusilə BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində və digər platformalarda ölkələrimiz arasında koordinasiyalı fəaliyyətin və qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. Türk Dövlətləri Təşkilatının bu ilin iyulunda Şuşada, oktyabrında isə Qırğızıstanda keçiriləcək qeyri-rəsmi və rəsmi sammitlərin önəmi diqqətə çatdırılıb. Azərbaycanın bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyi və bu çərçivədə ölkəmizlə Qırğızıstan arasında fəal əməkdaşlıq üçün əlavə imkan yarandığı vurğulanıb.

Prezident Sadır Japarov son illər dövlətlərarası münasibətlərimizin daha da dərinləşdiyini və dövlət başçıları səviyyəsində Dövlətlərarası Şuranın fəaliyyətindən məmnun olduğunu bildirib.

Tərəflər Qırğızıstan Prezidentinin ölkəmizə qarşıdan gələn səfəri ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparıblar.

***

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qırğızıstanın xarici işlər naziri Ceenbek Kulubayev ilə görüşüb.**

Görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, COP29-a hazırlıq işləri, habelə regionda mövcud vəziyyət müzakirə olunub.

Qırğızıstanın sülh və quruculuq prosesinə dəstəyinin yüksək qiymətləndirildiyi, habelə Qırğız Respublikasının təşəbbüsü ilə Ağdamın Xıdırlı kəndində inşa ediləcək orta məktəbin bu dəstəyin bariz nümunəsi olduğu vurğulanıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra nazirlər mətbuat konfransında bəyanatla çıxış ediblər.

***

**Dünən Ceyhun Bayramov Qırğızıstan parlamentinin sədri Nurlanbek Şakiyev ilə də görüşüb.**

Görüş zamanı iki ölkə arasında müxtəlif sahələrdə strateji əməkdaşlıq münasibətləri, əməkdaşlığın perspektivləri, xüsusilə parlamentlərarası müstəvidə ölkələrin bir-birinin mövqeyinə qarşılıqlı dəstək göstərməsinin vacibliyi barədə fikir mübadiləsi aparılıb.

**XQ**

# Komitə sədri təqdim olunub



**Aprelin 9-da Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva ölkə başçısının sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin olunmuş Ramin Məmmədovu kollektivə təqdim edib.**

Prezident Administrasiyasının şöbə müdiri ölkəmizdə nümunəvi dövlət-din münasibətlərinin formalaşmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. Bildirib ki, dövlət-din münasibətləri hər zaman prioritet sahə kimi Prezident İlham Əliyevin diqqət mərkəzində olmaqla yanaşı, həm də bu istiqamətə xüsusi qayğı göstərilir. Son illər dini sahədə həyata keçirilən islahatların önəmini vurğulayan F.Əliyeva Dövlət Komitəsinin qarşısında duran vəzifələrlə bağlı müvafiq tövsiyələri diqqətə çatdırıb.

Komitənin sədri Ramin Məmmədov dövlətimizin başçısı tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirib. Prezident İlham Əliyevin dövlət-din münasibətləri sahəsində qarşıya qoyduğu hədəflərin layiqincə yerinə yetirilməsi, qurumun fəaliyyətinin təkmilləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd edib.

**XQ**

# ...Gündəlikdə səkkizinci variantdır

(əvvəli 1-ci səhifədə)



Azərbaycanın sülh müqaviləsində müzakirəsini vacib saydığı məsələlərin nədən ibarət olduğu hər kəsə məlumdur. Bura Azərbaycanın hələ də işğal altında qalmış səkkiz kəndinin geri qaytarılması və Ermənistan qanunvericiliyində yer almış qonşu Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı maddələrin aradan qaldırılmasıdır. İkitərəfli danışıqlarda İrəvan üçün "aşılmaz səddə" çevrilən, bu günədək müzakirəsindən yayındığı məhz bu mövzulardır. Sülh gündəliyinin bu iki paraqrafı üzrə qarşılıqlı razılığa gəlindikdən sonra, qalır neytral platformada sülh masasının arxasında "tet-a-tet" əyləşmək və sazişi imzalamaq. A.Qriqoryanın açıqlamasından bu qənaət hasil olur ki, Paşinyan iqtidarı, nəhayət, Azərbaycanın sülh gündəliyini müzakirə etməyə hazırdır və danışıqları davam etdirmək niyyətindədir.

## Vaşinqton dialoqu alqışlayır

"Biz açıq şəkildə bildirdik ki, dialoqu alqışlayırıq". Bu sözləri Azərbaycan –Ermənistan münasibətlərinin normallaşması ilə bağlı ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller növbəti brifinqdə bəyan edib. Azərbaycan və Ermənistan arasında gələcək mümkün təmaslara dair sualı cavablandıran M.Miller onu da bildirib ki, problemin həlli yalnız danışıqlar masasından keçir: "İndi qarşıda baş tutacaq danışıqlar barədə nəsə demək istəmirəm. Biz ikitərəfli görüşləri, dialoqu alqışladığımızı bir daha açıq şəkildə bildirdik. Ağ Ev bu dialoqun asanlaşdırılması üçün üzərinə düşən istənilən rolu oynamaqdan məmnundur və biz buna davam edəcəyik. Hər hansı konkret görüşlərdən əvvəlcədən danışmaq istəmirəm". Amma Amerika cəmiyyətində heç də hamı Millerin açıqladığı rəsmi mövqeyin səmimiliyinə inanmır. Misal üçün, amerikalı sabiq diplomat Ceyms Karden "Amerikan mühafizəkarlığı" ("The American Conservative") jurnalında dərc olunan məqaləsində yazıb ki, əgər ABŞ həqiqətən də Ermənistanı xoşbəxt gələcəklə təmin etmək istəyirsə, Qafqaza müdaxiləni dayandırmalıdır. O, məqaləsində daha sonra qeyd edib ki, Birləşmiş Ştatlar Cənubi Qafqaza lüzumsuz və əlavə müdaxilədən çəkinməli, postsovet məkanına vurduğu zərəri azaltmalıdır: "İrəvanın Avropa İttifaqı (Aİ) və ABŞ ilə münasibətləri gücləndirmək istəyinə baxmayaraq, Brüssel görüşündə növbəti dörd il ərzində Ermənistana 270 milyon dollar qrant ayrılması barədə razılaşma ekspertləri heyran etmədi". Siyasi texnoloq Karden İrəvanla Brüssel və Vaşinqton arasında yaxınlaşmanı son dərəcə təhlükəli adlandırıb. Bunun ardınca tanınmış diplomat Paşinyan hökumətini, haqlı olaraq, Qərbin inteqrasiya ilə bağlı yalan vədlərə inanan və hələ də bunun acısını yaşayan Ukrayna və Gürcüstanın "təcrübəsini" nəzərə almağa çağırıb. Kənar müşahidəçilərdə belə bir yanlış qənaət formalaşa bilər ki, uzunömürlü münaqişənin tənzimlənməsi prosesinə birbaşa və ya dolayısı ilə aidiyyatı olan aktorlar tərəflərin arzuladıqları sülhə öz töhfələrini verməyə çalışırlar. Amma reallıqda hər şey göründüyü kimi deyil. Bakı son otuz ildə bu cür "vasitəçilərin", "həmsədrlərin" münaqişənin həllinə ikiüzlü, qərəzli münasibətlərinin dəfələrlə şahidi olub. "Cənubi Qafqazda sülhün mümkün qədər tez təmin olunması üçün hər şey edilməlidir". Hayastan mediası xəbər verir ki, bunu İrəvanda səfərdə olan Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç Ermənistan parlamentinin spikeri Alen Simonyanla görüşündə deyib. Baş katib bildirib ki, regionda sülhün alternativi yoxdur. Onun sözlərinə görə, sülhün təmin olunması və onun mümkün qədər uzunömürlü olması üçün ciddi çalışmaq lazımdır. Onu da qeyd edək ki, AŞ-nin baş katibi Ermənistana səfəri çərçivəsində bir sıra rəsmi şəxslər, o cümlədən, baş nazir Nikol Paşinyanla görüşüb. M.Peyçinoviç-Buriçin qarşıdakı günlərdə Azərbaycana səfəri də gözlənilir.

## "Böyük bacı" ümidləri doğrultmadı

İrəvanın Bakıdan bu günədək aldığı sülh sazişinin yeddi variantını qəbul etməməsinin, danışıqlardan yayınmasının əsas səbəblərdən biri kimi avropalı "bacısı" Fransanın adını tam əminliklə çəkmək olar. Bəs indi nə baş verdi ki, Ermənistan hakimiyyəti Azərbaycanın sülh paketinin müzakirəsinə hazır olduğunu bildirdi? Yoxsa qərbli təəssübkeşlərinə bağladığı ümidlər özünü doğrultmadığına görə haqq yoluna gəldi?! Fransanın Cənubi Qafqazda sülh prosesinə "tormozlayıcı" təsirlərini şərh edən italiyalı analitik, Roma Sapienza Universitetinin beynəlxalq hüquq üzrə fəlsəfə doktoru Valentina Şabert bu təmayülün bölgə ölkələrinə yalnız ziyan gətirəcəyini bildirib: "Fransanın hərəkətləri Brüsselin özünü etibarlı vasitəçi kimi göstərməyə çalışdığı Cənubi Qafqazda sülh prosesində Avropa İttifaqının səylərini sarsıda bilər". Təcrübəli ekspert qeyd edib ki, bu yaxınlarda Fransa ilə Ermənistan arasında hərbi-texniki əməkdaşlıq sahəsində imzalanan sazişlər Bakının mənfi reaksiyasına səbəb olub: "Fransadan Ermənistana hərbi texnikanın verilməsi Azərbaycan tərəfindən mənfi qarşılandı. Çünki Cənubi Qafqaz regionunda hələ də sülh əldə olunmayıb. Ümumiyyətlə, ayrı-ayrı ölkələrin öz milli maraqları çərçivəsində müstəqil fəaliyyət göstərməsi və Cənubi Qafqazda əvvəllər aralarında münaqişə yaşamış ölkələr arasında sülhün və dialoqun təşviqinə dair geniş ümumavropa yanaşmasına riayət etməməsi yolverilməzdir. Bu vəziyyət Avropanın məsələyə yanaşmasının özünün detallarının şübhə altına düşməsinə gətirib çıxarır". V.Şabert daha sonra diqqəti İtaliya Xarici işlər nazirinin müavini Edmondo Çiriellinin aprelin 5-də Brüsseldə keçirilən ABŞ–Aİ–Ermənistan görüşü ilə bağlı verdiyi son şərhə çəkib. Onun sözlərinə görə, nazir Fransa diplomatlarını Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün digər aktorların səylərinə xələl gətirməməyə çağırıb.

Göründüyü kimi, hayların fransız "züytutanlar"ından fərqli olaraq, italiyalı beynəlxalq hüquqşünas Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması məsələsində sağlam mövqe nümayiş etdirir. Xanım Şabertin Parisin Cənubi Qafqazda destruktiv əməlləri ilə bağlı hüquqi mülahizələrinin əyani təsdiqi göz qabağındadır. Fransanın Ermənistandakı səfiri Olivye Dekotini növbəti qalmaqallı açıqlaması ilə gündəmə gəlib. O, "X" sosial şəbəkəsindəki hesabında bunları yazıb: "Fransa Ermənistana başqa ölkələr üçün əlçatmaz olan ən müasir hərbi texnikanı tədarük edir". Səfir paylaşımına Fransanın "Thales" şirkətinin istehsal etdiyi radarları, o cümlədən, üç ədədi Ermənistana təhvil verilmiş "Ground Master 200" sistemləri barədə məqalənin linkini də əlavə edib.

Yəni, müsyö Dekotini bununla demək istəyir ki, Fransa hazırda Ermənistana elə hərbi texnika göndərir ki, başqaları onu heç cür əldə edə bilməzlər. Səfirin bu açıqlaması Makron Fransasının Ermənistanı fəal şəkildə silahlandırmaq kimi hərbi-siyasi avantürasından əl çəkmədiyi anlamına gəlir. Bu isə Cənubi Qafqazda uzunmüddətli sülhün əldə olunması imkanlarına mənfi təsir göstərir.

## Ermənistan parlamentində telefonsuz dinləmələr

Dünən Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın və xarici işlər naziri Ararat Mirzoyanın iştirakı ilə parlamentin qapalı iclasında dinləmələr başlayıb. Hay saytlarının verdikləri məlumatlara əsasən, iclasın gündəliyinə Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası üzrə məsələlər daxildir. Məlumatda o da qeyd olunur ki, dinləmələr iqtidardakı "Vətəndaş sazişi" partiyasının təşəbbüsü ilə keçirilir. Parlamentdəki müxalif fraksiyalar bu xarakterli müzakirələrin təşkilinə etirazlarını bildiriblər. Bu səbəbdən parlamentin sədri Alen Simonyan iclasın qapalı keçirildiyini və məxfiliyini əsas göstərərək gündəliyi qəbul etməyənlərin iclas zalını tərk etməsini istəyib. Spikerin göstərişinə əsasən, deputatlar dinləmələrdə telefonsuz iştirak ediblər.

Bəli, iki ölkə arasında sülh sazişində erməni parlamentarilərinin müzakirəsini və yekdil rəyə gəlmələrini tələb edən nüanslar var. Onlar əvvəlcə Fransadan, İran üzərindən Hindistandan Ermənistana silah-sursatın daşınmasına, İrəvanı yenidən müharibəyə sürükləməyə çalışanların təhlükəli planları ilə bağlı sağlam mövqelərini bildirməli, kəndlərin geri qaytarılması, sərhəd xəttinin hansı xəritələr əsasında çəkiləcəyinə aydınlıq gətirməlidirlər. Onlar İrəvanın qərbli havadarlarına güvənərək beynəlxalq tribunalardan yalan və böhtanla dolu bəyanatlar vermək təcrübəsinə son qoyması və Bakının irəli sürdüyü sülh sazişinin səkkizinci variantı barədə ciddi düşünməlidirlər.

Nəhayət, Nikol Paşinyanın özünün də etiraf etdiyi kimi, "ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin demarkasiyası və kommunikasiyaların blokdan çıxarılması prosesi" gecikmədən həllini tapmalıdır. Əgər bunlar baş verməzsə, Azərbaycanın sınaqdan çıxmış sülhəməcburetmə üsulunu işə salmaqdan başqa yolu qalmayacaq. Bu reallığı, gec də olsa, Ermənistan və onun kəmfürsət və məkrli himayədarları da anlamalıdırlar.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fərhad MƏMMƏDOV,**
**siyasi icmalçı**



**Bəli, Azərbaycan tərəfi sülh sazişinə səkkizinci dəfə öz şərhlərini əlavə edib qarşı tərəfə göndərmişdi. İndi Ermənistan rəhbərliyi buna öz şərhlərini qoşaraq Bakıya qaytarıb. Biz həmin şərhlərlə tanış olandan sonra ya danışıqlara gedəcəyik, ya da növbəti şərhlərimizi hazırlayıb onlara göndərəcəyik. Ümumiyyətlə, sülh danışıqları prosesi davam edir və bu prosesdə durğunluğun yarandığını, görüşlərin keçirilmədiyini demək doğru olmaz. Bu ilin əvvəlindən xarici işlər nazirlərinin, eləcə də sərhəd məsələsi ilə bağlı hökumət komissiyalarının görüşləri baş tutub. Bu müddətdə ölkə liderləri iki dəfə görüşüblər.**

**Amma bir qədər əvvəl Ermənistan xarici işlər naziri bildirmişdi ki, sülh sazişi ilə bağlı ziddiyyət yaradan iki prinsipial məqam var. Birincisi sərhədlərin delimitasiyasına, ikincisi isə kommunikasiyaların açılmasına aid məqamlardır. Bu fakt onu deməyə əsas verir ki, digər məsələlər ətrafında ümumi razılıq mövcuddur. Əsas məsələlərdən biri Azərbaycanın dörd kəndin geri qaytarılması ilə bağlı gözləntiləridir. Narahatlıq doğuran digər məqam isə Ermənistanın konstitusiyasında məlum maddələrin dəyişdirilməsidir. Sadaladığımız məqamlara qarşı tərəfin mövqeyi hələlik aydın deyil. Düzdür, baş nazir Paşinyanın hər iki məsələ barədə açıqlamaları var. Amma onun bəyanatlardan irəli gələn hər hansı hərəkətini görmürük. Yəni, prosesin başlanması, müvafiq qərarların qəbul edilməsi yoxdur. Bu halda etiraf etməliyik ki, bir tərəfdən danışıqlar davam edir, digər tərəfdən Azərbaycanın sülh gündəliyinə əlavə etdiyi şərhlərinə rəsmi İrəvan cavab verməyib.**

# Paşinyanın "legitimlik xətti"

## *Növbəti mesaj, əldən qaçan şans və erməni avantürizmi*

**Ermənistanın baş naziri Nikol Paşinyan "Telegram" kanalındakı video yayımında söylədiklərini, dolayısı ilə daha əvvəl də dilə gətirib. O, çıxışlarının birində bildirmişdi ki, məqsədi ölkəsi üçün mülkiyyət sənədi almaqdır. Başqa sözlə, söhbət "kupça"dan gedirdi. Həmin vaxt bir sıra müxalif siyasilər baş nazirin bu fikrini hay-küylə qarşılamışdılar. Həqiqətən, sual yaranmışdı: otuz ildən çoxdur fəaliyyət göstərən ölkənin mövcudluğunu təsdiqləyən hüquqi sənədin olmaması nə deməkdir?**

Amma N.Paşinyan reallığı dilə gətirmişdi. Ona qarşı çıxanlar isə reallıq hissini itirmişlər idilər və onlar Ermənistan cəmiyyətində yenə qalmaqdadırlar. Görünür, belələrinin xəstəliklərini aradan qaldırmaq vaxt aparacaq. Nikol hələ ötən il vaxtın itirilməsinin ölkəsi üçün heç bir nəticə verməyəcəyinin, əksinə, əlavə problemlər doğuracağının anonsunu səsləndirmişdi.

Lakin onu da vurğulayaq ki, Paşinyan dilə gətirdiyi həqiqətlərə söykənib fəaliyyət göstərə bilmir. Daha dəqiq desək, bunu bacarmır və ənənəvi erməni avantürizminin girovuna çevrilir. Deməli, indi "Telegram" kanalında açıqladığı reallıqlar hələ o demək deyil ki, baş nazir fikrini dəyişməyəcək. Onun dediklərinə adekvat davranacağı, istər-istəməz, şübhə doğurur.

Beləliklə, Ermənistan baş naziri bildirib ki, ölkənin təhlükəsizliyinin təminatı üçün onun legitimliyi üzərində dayanmaq lazımdır. Legitimlik xətti isə beynəlxalq səviyyədə tanınmış sərhədlərdir. Bu fikrə münasibət bildirəcəyik. Hələlik isə...

Bəli, Nikol yayımında sərhədlərin qorunması və təhlükəsizlik məsələsində erməni cəmiyyətinə hakim kəsilmiş düşüncəni açıqlayır. Sözügedən düşüncədə başlıca rolu ordu oynayır. Yəni, ordu güclüdürsə, deməli, təhlükəsizlik etibarlı əllərdədir. Paşinyana gəldikdə, baş nazir söylədikləri ilə güclü ordu amilini bir kənara qoyur, sözlərindən belə çıxır ki, ordu amili bütün digər məsələlərin yoluna qoyulmasından sonra aktual sayıla bilər. Yaxud, ona müraciət dinc və diplomatik həll yolu olmadıqda, mövcud istiqamətdəki bütün qapılar bağlandıqda məqbuldur.

Xəstə erməni cəmiyyətindəki hərbə-zorbalıq xarakterinə sübut baxımından çox da uzağa getməyə ehtiyac yoxdur. Həmin cəmiyyət Ermənistan dövlətinin, onu dəstəkləyən xarici qüvvələrin Azərbaycana qarşı ərazi iddiasına sadiqlik göstərmiş, beynəlxalq hüquqa zidd olaraq işğal siyasətini dəstəkləmişdi. 44 günlük müharibə nəticəsindəki acınacaqlı məğlubiyyətdən nəticə çıxarmamışdı. Üstəlik, hazırda Ermənistanda güclü ordu qurub Azərbaycanın üzərinə getmək, Qarabağı geri qaytarmaq kimi revanşist baxışlar var. Paşinyan fikirləri ilə, faktiki olaraq, bu yanaşmanın keçərsizliyini bildirir. Onun ordu amilini ikinci plana atmasına səbəb elə budur.

Digər tərəfdən, N.Paşinyan Ermənistan ordusunun gücsüzlüyünü vurğulayır. O, ümumən, hazırkı məqamda güc yolu ilə nəyəsə nail olmağın mümkünsüzlüyündən söz açır. Əlbəttə, Nikol fikrini açıq-aşkar bildirə bilməz. Daxildəki başıpozuqların hərəkətə keçmələrindən qorxur. Mövcud səbəbdən həmişə, bir qayda olaraq, sözünü subliminal mesajlar vasitəsilə çatdırır. Xəstə cəmiyyət isə ya onun nə dediyini anlamır, ya da anlayıb baş nazirə "satqın" və "xain" damğası vurur. Paşinyan isə bunun qarşılığında özünüqoruma instinktindən qaynaqlanmış həyasızlığını işə salır, vaxtilə hər şeyi dediyini, amma sözünə qulaq asılmadığını bildirir...

Gələk, N.Paşinyanın "legitimlik xətti" ritorikasına. Hesab edirik ki, əvvəlki, belə demək mümkünsə, "kupça" məntiqinin davamı olan bu ritorika ilə baş nazirin "beynəlxalq səviyyədə tanınmış sərhədlərimiz" deyimi arasında ziddiyyət var. Məsələ burasındadır ki, Ermənistanın legitimliyi qurama xassəyə malikdir. Beynəlxalq səviyyədə tanınmaya gəlincə, Ermənistan adlı dövlət var və hələ 1991-ci ildə şans yaranmışdı ki, sözügedən legitimlik formalaşsın. Yəni, vəlvələdən və ya zəlzələdən ortada olan dövlətin qəbul edilməsi mümkün görünməyə başlamışdı. Ancaq Ermənistan həmin şansı elə o zaman əldən qaçırdı. Sübut olundu ki, ermənilər dövlət milləti olmağa layiq deyillər. O da məlum oldu ki, beynəlxalq miqyasda tanınmış sərhədlər ermənilərə azlıq edir. Nəticədə Azərbaycan torpaqları işğala məruz qaldı. İşğal otuz ilə yaxın çəkdi...

Ötən müddətdə dünya birliyi Ermənistanı başqa dövlətin torpağına qəsb gerçəkləşdirdiyinə inandıra bilmədi. Rəsmi İrəvan işğalın dayandırılması ilə bağlı BMT-nin dörd qətnaməsinə məhəl qoymadı, çağırışlara əhəmiyyətsiz yanaşdı, sülh danışıqlarını dalana dirədi. Yekunda Azərbaycan öz gücü ilə ədaləti bərpa etdi...

N.Paşinyan hazırda legitimlikdən danışmaqla, ölkəsi üçün həm də, bir növ, ədalət formulu axtarışına çıxıb. Hesab edir ki, erməni legitimliyi dövlətin təhlükəsizliyi üçün faktor rolunda çıxış etməlidir. Əlbəttə, o, otuz ildən artıq müddətin həmin legitimliyin qəbullanması baxımından itirilmiş illər olduğunun fərqinə varmasa da, yaxşı bilir ki, legitimliyin mövcudsuzluğu ölkənin təhlükəsizliyi baxımından böyük problemdir. Onun subliminal mesajsız, tam açıq şəkildə ortaya qoyduğu da elə budur. Beləliklə, N.Paşinyan bəyan edir ki, legitimlik "heç kimin bizə (Ermənistana – red.) hücum etməyə haqq qazandırmaq şansı"nın yaranmaması üçün lazımdır.

Bəli, erməni cəmiyyəti bu barədə düşünməlidir. Elə Paşinyanın özü də. Düşünməlidir ki, Azərbaycanla kompromisə getməmək, Bakının şərtlərini qəbul etməmək, məğlub dövlət kimi üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməmək, Cənubi Qafqazı qlobal güclərin maraq və mənafe davasındakı rəqabət platformasına çevirmək Ermənistana heç bir legitimlik qazandırmayacaq. Həm də ona görə qazandırmayacaq ki, Ermənistanın ərazi bütövlüyünün özü nə qədər beynəlxalq səviyyədə tanınsa da, həmin tanınma üçün sərhəd xətti anlayışı yoxdur.



Bir daha deyək ki, bu qeyri-müəyyənliyi Ermənistanın özü Qarabağ avantürasını işə salmaqla yaratmışdı. Yəni, mövcud durumda dünya birliyinin edəcəyi heç nə yoxdur. Dünya böyük ölçüdə gücə tabedir. Beynəlxalq aləm Azərbaycanın hüquqi cəhətdən özünə məxsus olanı güc yolu ilə əldə etdiyini gördü, prinsip etibarilə ölkəmizin mövqeyini bəyəndi.

Qeyd edək ki, dünya birliyi Ermənistanın hazırkı əraziləri kimi meydana çıxan torpaqların, əslində, ona məxsus olmadığından da xəbərdardır. İstər-istəməz belə düşüncə yarana bilər və yaranır ki, ermənilərin öz dövlətləri və əraziləri olmayıb, onlar varlıqlarını qonşularına qarşı iddialarla sürdürüb, çeşidli qlobal oyunlarda alətə çevriliblər. Mövcud amplua kimlərəsə, hansı qüvvələrəsə "fayda" gətirsə də, aydındır ki, belə mənfi reputasiyalı topluma münasibət müsbət deyil.

Bəli, xaricilər mahiyyətcə erməniləri azğın obrazında görürlər. Tarixin müxtəlif dövlərində onların azğınlığından yararlanıblar. Sonra erməni avantüristləri lazımsız əşya kimi kənara atılıblar. Ona görə 1991-ci ildə mövcudiyyətinə başlamış Ermənistan adlı dövləti şans qismində dəyərləndirmək mümkündür. Ölkənin işğalçılıq siyasəti, qonşulara qarşı ərazi iddiaları fonunda Paşinyanın hazırda legitimliklə əlaqədar vurğulaqıdığı məqamlar şansın əldən çıxma təhlükəsindən xəbər verir. Belədə daha bir sual yaranır: Nikol proseslərdə günahkar deyilmi?

Əlbəttə, günahkardır! Paşinyan hazırda dilə gətirdiklərini 44 günlük müharibədən əvvəl deməli idi. Amma demədi və "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verdi. 44 günlük müharibədən sonra da Paşinyan üçün şans yaranmışdı. Ancaq Azərbaycanın ona uzatdığı sülh əlini sıxmadı. Hətta bəzən həqiqətləri dilə gətirəndə, ilk baxışdan konstruktiv kimi görünəndə də, sonda prinsipial davranmağı bacarmadı. Bu gün isə bir növ küncə sıxılmış təsiri bağışlayır və legitim xətlərdən danışır. Hakimiyyətə gələndə yarada biləcəyi, 44 günlük müharibədən sonra yaratmaq üçün şans qazandığı və heç bir imkandan istifadə edərək yarada bilmədiyi xətlərdən...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bakı hər şeyi çox yaxşı bilir

**Aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında keçirilən görüşün üzərindən, necə deyərlər, sirr pərdəsi yavaş-yavaş qalxır. Xüsusilə, görüşün əvvəlcə üçtərəfli formatda keçiriləcəyinin elan olunmasına baxmayaraq, sonradan onun dördtərəfli görüş şəklini alması bir çox mətləblərin gün işığına çıxmasına səbəb oldu. Yayılan foto və videogörüntülər sayəsində məlum oldu ki, danışıqlara qatılan dördüncü şəxs Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Jozep Borreldir.**



Bu həmin Borreldir ki, o, Qərbdə Ermənistanı hərbi cəhətdən dəstəkləməyi ən çox müdafiə edən şəxslərdən biridir. Ali nümayədə ötən ilin oktyabr-noyabr aylarından etibarən İrəvanı hərbi cəhətdən dəstəkləmək ideyasını qızğın şəkildə müdafiə edir. Borrel Aİ-dən hərbi yardım alan dövlətlərin siyahısına Ermənistanı da daxil etməyə çalışır. Azərbaycan mediasında yer alan məqalələrdə isə Borrelin fransız casusu kimi gözlənilmədən görüşə qatıldığı vurğulanıb.

Qeyd edək ki, Azərbaycan tərəfi görüşdən narahatlıq duyduğunu, onun regionda sülhə və sabitliyə xidmət etmədiyini bir neçə dəfə bildirmişdir. Aprelin 3-də Prezident İlham Əliyevə zəng edən ABŞ Dövlət katibi Antoni Blinken üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda dövlətimizin başçısı ilə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini demişdir. Prezident İlham Əliyev isə qeyd etmişdir ki, onda olan məlumata görə üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycanla sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələlər də müzakirə olunub. Dövlətimizin başçısı anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən, Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulamışdır.

Prezident İlham Əliyevin qənaətinə görə, ABŞ–Avropa İttifaqı–Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.

Dövlət katibi Blinken isə 5 aprel görüşünün Azərbaycana qarşı olmadığını bildirmişdir.

Eyni zamanda, aprelin 4-də Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen də Azərbaycan Prezidentinə zəng etmişdir. Bu telefon danışığında Brüsseldə keçiriləcək üçtərəfli görüş məsələsi qaldırılmışdır. Dövlətimizin başçısı ABŞ Dövlət katibi ilə müzakirə olunduğu kimi, bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə etmiş və regional inklüzivliyin vacibliyini bildirmişdir.

İndi məlum olur ki, Azərbaycanın narahatlıqları nə dərəcədə əsaslı imiş. Ancaq görüş iştirakçıları, regional oyunçuların, ilk növbədə, Azərbaycanın həddindən artıq narazılığına səbəb olmamaq üçün hər şeyi elə rəsmiləşdiriblər ki, razılaşmaların hərbi komponentini ifşa etməsinlər. Danışıqların raundları arasındakı fasilədə tərəflərin qəbul etdikləri "təvazökar" birgə bəyanatda Aİ və ABŞ-ın Ermənistanda aparılan "demokratik islahatlara" heyranlığı, eləcə də bu Cənubi Qafqaz ölkəsinin iqtisadi inkişafına hərtərəfli dəstək vermək öhdəliyi öz əksini tapıb. Həmin məqsədlər üçün Aİ Ermənistana 270 milyon avro, ABŞ isə 65 milyon dollar ayırmağı vəd edib.

Ekspertlər isə hesab edirlər ki, Ermənistana ayrılması nəzərdə tutulan maliyyə yardımı yalnız aysberqin görünən hissəsidir. Bundan sonra digər məbləğlər də ayrılacaq. Bundan əlavə, ilk baxışdan bu pulların formal təyinatının hərbi yardımla heç bir əlaqəsi olmasa da, demokratiyaya və iqtisadi islahatlara dəstəklə bağlı olsa da, ayrılan vəsait İrəvana öz büdcəsindən qənaət etməyə imkan verəcək. Qənaət olunan vəsaitdən isə əlavə silah-sursat almaq üçün istifadə olunacaq. Nəticədə aprelin 5-də Brüsseldə Ermənistan, Aİ və ABŞ arasında belə gizli hərbi əməkdaşlıq qurulduğunu söyləmək mümkündür.

Mövzu ilə bağlı Caliber.az saytında yerləşdirilmiş yazıda bildirilir ki, Brüsseldə hərbi əməkdaşlıqla bağlı gizli razılaşmalara baxmayaraq, görüşü, heç şübhəsiz, Azərbaycan siyasətinin və diplomatiyasının böyük qələbəsi hesab etmək olar. Sayt diqqəti ona yönəldir ki, görüş zamanı və ondan sonra verilən bəyanatların heç birində 2023-cü il sentyabrın 19-da başlanan və cəmi bir sutka davam edən lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağı könüllü olaraq tərk etmiş ermənilərin bölgəyə qeyd-şərtsiz qayıtması qeyd olunmayıb. Bu əhali qrupu ilə bağlı yalnız bir məqam var ki, o da onların Ermənistanda məskunlaşması və inteqrasiyası ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, Brüssel görüşü ötən ilin oktyabrında "ermənilərin Qarabağa qeyd-şərtsiz qayıdışı" tezisinin səsləndirilməsi ilə ölkəmizin daxili işlərinə kobud müdaxiləyə cəhd edilmiş biabırçı Qranada görüşünün məntiqi davamıdır. O zaman deyə bilərik ki, Avropa və ABŞ Azərbaycanın ədalətli və dönməz siyasəti ilə hesablaşıb.

Ermənistanın özündə isə siyasi partiyalar, ekspertlər, deputatlar arasında görüşlə bağlı ikitirəlik hökm sürməkdə davam edir. Qərbyönlü ekspertlər və media Brüssel görüşünün nəticələrini Ermənistanın şəksiz qələbəsi kimi təqdim etməyə çalışır. Politoloq Armen Petrosyan bu barədə deyib: "Biz kollektiv Qərblə əməkdaşlıq nöqteyi-nəzərindən müstəqil Ermənistanın bütün tarixində misli görünməmiş və bir format kimi həyata keçirilməsi, ilk növbədə, Hayastan hökumətinin geosiyasi reallıqları nəzərə alaraq yürütdüyü siyasət nəticəsində mümkün olan Brüssel formatının əhəmiyyətini qeyd etməli və qiymətləndirməliyik".

Qərbyönümlü "Armenian Report" saytında yerləşdirilmiş "Hərbi yardım və bazalar: Qərb Ermənistanı təhlükəsizlik çətiri ilə örtəcək" sərlövhəli məqalədə isə bildirilir ki, məhz Qərb, ilk növbədə, Fransa və ABŞ erməni xalqının fiziki təhlükəsizliyinə təminat verə bilər. Amma biz də onlara nəsə kömək etməliyik. Yazıda qeyd olunur ki, Brüssel görüşü ölkənin daxili siyasi həyatında əsas mövzulardan biri olmaqda davam edir: "Eyni zamanda, əgər cəmiyyətin əksəriyyəti Ermənistanla Qərb arasında istər iqtisadi, istər siyasi, istərsə də hərbi sahədə əlaqələrin daha da inkişafını gözləyirsə, cəmiyyətin rusiyayönlü hissəsi, media və siyasətçilər Brüssel görüşünün nəticələrini neytrallaşdırmağa cəhd edir. Rusպərəst qüvvələr Paşinyanın çox az – cəmi 270 milyon avro və 65 milyon dollar aldığını iddia etməyə çalışırlar. Deyirlər ki, bu, dəryada bir damladır. Parlamentdəki Koçaryan fraksiyasının üzvü Lilit Qalstyan deyib ki, hökumət geosiyasi vektorun 270 milyon dollarla qiymətləndirilən dəyişdirilməsi mərhələsinə qədəm qoyur. Onun fikrincə, bu, diversifikasiya deyil, dağıdıcı avantüradır. Mübahisə etmirik, ilk baxışdan məbləğ, həqiqətən, əhəmiyyətsizdir. Amma, necə deyərlər, xoşbəxtlik pulda deyil. Aprelin 5-də Brüsseldə keçirilən görüş, əslində, Aİ və ABŞ-ın Ermənistana, onun demokratiyasına, təhlükəsizliyinə və ərazi bütövlüyünə dəstəkdə konkret iştirakının başlanğıcı oldu. Brüsseldə isə Ermənistan, nəhayət, Rusiya ilə "boşanma" prosesini rəsmiləşdirdi".

Amma müxalifət liderləri və media subyektləri razılaşmaların faydasız olduğunu qeyd edirlər. "Ermənistanın "məxməri hökumətinin" tərəfdarlarının necə sarsıldığını görmək, onların əsaslandırmaq, izahat vermək, ört-basdır etmək cəhdlərinə şahidlik etmək çox gülməlidir" – deyə "Ermənistan Sensasiya-Reconquista" teleqram kanalı yazır.

Yaxud, tanınmış erməni politoloq Artur Xaçikyan deyir: "Onlar tələb edirlər ki, biz ruslara qarşı döyüşək. Rusiya ilə siyasi və iqtisadi əlaqələrimizi kəsək. Onlar nə Azərbaycana, nə Gürcüstana, nə də Türkiyəyə belə bir tələb irəli sürə bilməzlər. Nədənsə, başqa dövlətlər öz maraqlarını müdafiə edə bilirlər, biz isə bacarmırıq. Bu da Qərbin marağının harada olduğunu göstərir. Xatırladım ki, Qərb artıq rəsmi Bakıdan üzr istəməyə nail olub. Bəyan edib ki, Brüssel görüşü Azərbaycan üçün təhlükə yarada bilməz".

Bu arada Ermənistan silahlı qüvvələri Brüssel görüşündən əvvəl, görüş zamanı və ondan sonra şərti sərhəddə Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqda davam edirlər. Müdafiə Nazirliyinin yaydığı məlumata görə, qarşı tərəf son iki gündə ordumuzun Laçın və Kəlbəcər rayonları istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Aydındır ki, İrəvanın məqsədi Azərbaycanı cavab atəşi açmağa məcbur etmək, daha sonra gərginliyin artmasında Bakını günahlandırmaq və Qərbin hər cür köməyinə haqq qazandırmaqdır. Üstəlik, bununla da nümayiş etdirirlər ki, "döyüş ruhu" aşağı düşməyib və Azərbaycanla müharibə ideyası Ermənistanın gündəmindən çıxmayıb.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** "XQ"yə



açıqlamasında bildirdi ki, Brüssel raundu gələcəkdə bölgəmizdə baş verə biləcək təxribatçı proseslərə öz "töhfə"sini verən görüş kimi qiymətləndirilə bilər. Onun sözlərinə görə, Qərb yüz il öncə də müxtəlif platformalarda "erməni məsələsi"ni qaldırır, ermənilərin sayəsində bölgədə öz maraqlarını həyata keçirməyə çalışırdı: "Biz yenə də hayların siyasi təhlükəsizliyi məsələsinin müzakirə edilməsinin şahidiyik. Əlbəttə, görüşün tam təfərrüatları ilə bağlı açıqlama verilməyəcək. Açıqlanan məlumatda əsasən iqtisadi məqamlar qabardıldı. Lakin sirr deyil ki, bağlı qapılar arxasında Ermənistanın gələcək siyasi təhlükəsizliyi, onun müdafiəsi müzakirə edilib".

Z.Məmmədov qeyd etdi ki, əlbəttə, kimsə ayrılan məbləğin az olduğunu söyləyə bilər. Bu, həqiqətən də, belədir. Qərb hazırda əsas yardımı Ukraynaya ayırır. Hətta Kiyevə yardımın ayrılması məsələsində bəzən fikirlər haçalanır: "Belə olan vəziyyətdə Ermənistana böyük pulların veriləcəyi gözlənilən deyildi. İri məbləğdə vəsaitin ayrılması Aİ ölkələri və ABŞ daxilində fikir ayrılığının yaranmasına gətirib çıxara bilərdi. Bunun üçün parlamentlərin də razılığı tələb olunur".

Politoloq qeyd etdi ki, bizi maraqlandıran əsas məsələ rəqəmlər deyil və olmamalıdır. Bizi maraqlandıran əsas məsələ Ermənistana verilən siyasi dəstəyin hansı həddə qədər ola biləcəyi və İrəvanın Qərb üçün nə dərəcədə lazımlı olub-olmamasıdır. Görüşün keçirilməsi isə onu göstərir ki, "erməni məsələsi" tarixdə olduğu kimi, bu gün də bir çox dairələrə lazımdır və onlar üçün vacib rol oynayır.

Ancaq Qərb tərəfindən silahlandırılan, şərti sərhəddə təxribatlar törədən İrəvan bilmədir ki, onun aldığı və alacağı istənilən silahlara qarşılıq olaraq, ölkəmiz dəfələrlə çox və daha keyfiyyətli, daha müasir silahlar alıb və alacaq. Əslində, biz proseslərin bu cür inkişaf ssenarisini istəməsək də, buna hazır idik. Məqsədi Cənubi Qafqazda sabitliyin yaranmasına imkan verməmək olan "kuratorlar"ın göstərişlərini tam yerinə yetirən Ermənistan isə növbəti təxribatlarında sarsıdıcı zərbələr alacaq. Bununla beynəlxalq hüququn subyekti kimi olan-qalan müstəqilliyini də sürətlə itirəcək.

***Səxavət HƏMİD***
***XQ***

# Qırmızı Xaç Komitəsinə Azərbaycanda ehtiyac qalmayıb




**Siyasi müstəqilliyininin bərpasından ötən qısa müddət ərzində iki qanlı müharibədən keçmiş bir ölkə kimi Azərbaycan üçün itkin düşmüş şəxslər mövzusu xüsusi aktuallıq kəsb edir. Ən çox vətəndaşımız da Birinci Qarabağ müharibəsində itkin düşüb. İkinci Qarabağ müharibəsində də itkin düşmüş hərbçilərimiz var. Amma ötən müddət ərzində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) bu məsələdə ölkəmizə heç zaman yardım göstərməyib. Əksinə, Azərbaycana qarşı qanlı cinayətlərdə iştirak etmiş erməni separatçılarına hərtərəfli köməyə can atması ilə fərqlənib.**

Azərbaycan hər zaman itkin düşmüş vətəndaşlarının axtarışı mövzusuna diqqət yetirib. Lakin ərazilərinin 20 faizinin uzun müddət Ermənistanın işğalı altında olduğunu nəzərə alsaq, bu məsələdə dövlətimizin imkanları çox məhdud idi. Ona görə də, Ermənistanın işğal etdiyi ərazilərdə soydaşlarımızın başına nə gəldiyini öyrənmək mümkün deyildi. Amma BQXK kimi tərəfsiz olduğunu iddia edən beynəlxalq qurum üçün bu, mümkün idi. Bu struktur özünü qərəzsiz, neytral və müstəqil təşkilat kimi təqdim edir, məqsəd və vəzifələrinin müstəsna olaraq humanitar xarakter daşıdığını bildirir və silahlı münaqişələr və zorakılıq nəticəsində zərər çəkmiş insanların həyat və ləyaqətini qorumaqdan və onlara yardım göstərməkdən ibarət olduğunu vurğulayır. Gözəl səslənir, 1990-cı illərdə qaçqınlara yardım, itkin düşmüş şəxslərin axtarılıb tapılması adı altında Azərbaycanda "məskunlaşan" BQXK bu istiqamətdə müəyyən qədər işlər görsə də, öz missiyasını tam yerinə yetirə bilmədi. BQXK bir çox azərbaycanlının Ermənistana aparıldığı, əsir düşərgələrində saxlandığı barədə məlumatlı olsa da, üzərinə düşən vəzifələrin icrasını həyata keçirmədi və müxtəlif bəhanələrlə özünü prosesdən kənarlaşdırmağa çalışdı.

Ümumiyyətlə, bu təşkilatın "qərəzsizliyi" və "bitərəfliyi" ilə bağlı çox suallar yaranıb. Belə ki, lazımi mandata və itkin düşmüş vətəndaşların axtarışına kömək etmək üçün real imkanlara malik olmasına baxmayaraq, BQXK dörd minə yaxın azərbaycanlının taleyini müəyyən etmək üçün heç nə etməyib. Əgər əvvəllər torpaqlarımız işğal altında olanda bu iş daha çox formal xarakter daşıyırdısa, 2020-ci ilin payızında Vətən müharibəsində qazanılan qələbədən sonra yeni, praktiki məzmun kəsb etdi. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının müxtəlif guşələrində erməni silahlı birləşmələri tərəfindən öldürülməzdən əvvəl məruz qaldıqları işgəncə izləri olan yeni kütləvi məzarlıqlara rast gəlinir. 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra Şuşa, Ağdam, Xocavənd, Xocalı, Füzuli və Kəlbəcər rayonlarında belə dəfn yerləri aşkar edilib. Bu, cəmi üç ildə aşkar edilən məzarlıqlardır. Ancaq BQXK regionda otuz ildən artıq fəaliyyəti dövründə lazımi səlahiyyət və imkanlara malik olmasına rağmən, bir belə məzarlıq aşkarlamadı. Baxmayaraq ki, münaqişələr və müharibələr zamanı itkin düşənlərin axtarışı və taleyinin müəyyən edilməsi bu təşkilatın əsas vəzifələrindən biridir.

BQXK özünün tərəfsizliyini hər fürsətdə bildirməyi sevir. Biz də bilirik, amma Ermənistana münasibətində bu qurumun neytral davranmasını müşahidə etmirik. BQXK Xankəndidə ofis açmışdı. İşğal zamanı da fəaliyyət göstərmişdi. Doğrudur, BQXK yerli münaqişə zonalarında və qanuni hakimiyyətin nəzarət zonasından kənar ərazilərdə fəaliyyət göstərmək hüququna malikdir. Amma BQXK-nin Xankəndidəki nümayəndəliyi Bakıya deyil, Qızıl Xaç Cəmiyyətinin İrəvan nümayəndəliyinə tabe idi. BQXK-nin bu addımı atmaqla beynəlxalq hüquqa, Azərbaycan qanunlarına hörmətsizlik nümayiş etdirirdi. Azərbaycanda BQXK-nin faktiki iki mərkəzi fəaliyyət göstərdi. Xankəndi ofisinin öz büdcəsi varı idi, müstəqil kadr seçimi həyata keçirirdi və daha çox Ermənistana inteqrasiya olunmuş formada fəaliyyət göstərirdi. Azərbaycan BQXK-yə dəfələrlə müraciət edərək, Xankəndi ofisinin statusunun dəyişdirilməsini tələb etsə də, bütün müraciətlər cavabsız qalırdı.

Əslində, bunun da səbəbi vardı, belə ki, vaxtilə BQXK-nin Bakı ofisinə rəhbərlik etmiş, hazırda isə qurumun Avropa və Şərqi Asiya departamentinin rəhbəri olan Arian Bauer İkinci Qarabağ müharibəsindən sonra bildirmişdi ki, yeni müharibə olacaq və onların Xankəndidə fəaliyyətinin hələ uzun müddət davam etdirməsinə ehtiyac var. Yəni, BQXK inanırdı ki, bölgədə yeni müharibə olacaq və buna görə də separatçıların yanında olmalıdı. Ancaq Azərbaycanın həyata keçirdiyi 20 sentyabr lokal xarakterli antiterror tədbirlərindən sonra BQXK oyundan kənar vəziyyətə düşdü və Xankəndidəki ofisini bağladır. Amma burada da nə qədər "tərəfsiz" olduğunu təsdiqlədi. Belə ki, Xankəndi ofisinin fəaliyyətinin dayandırılması barədə qərarı qurumun Bakı ofisi deyil, İrəvan ofisi yaydı. Bu fakt bir daha göstərir ki, BQXK-nin Xankəndi fəaliyyəti texniki proseslərə yox, siyasi amillərə dayanırdı.

Azərbaycanın bu quruma iradlarının haqlı olduğunu təsdiqləyən faktlar da var. Məsələn, Rusya–Ukrayna münaqişəsi ilə bağlı humanitar fəlakət təbili çalan BQXK Donetskə yardımların Moskvadan deyil, Kiyevdən aparılması tələbi ilə çıxış edirdi. Ancaq 44 günlük müharibədən sonra, Azərbaycanın Ağdam yolunu açmasına və qurumun yardımlarının bu yolla nəql edilməsinə şərait yaratmasına baxmayaraq, BQXK ciddi-cəhdlə yardımın Laçın yolu ilə nəqlini istəyirdi. Niyə? Cavabı aydındır, bu istək təşkilatın məsələləri siyasiləşdirməsi və müəyyən maraqlara uyğun fəaliyyət göstərməsi barədə deyilənləri təsdiqləmişdi.

BQXK-nin "neytrallığı" tək bu davranışlarla yekunlaşmır. Ekoloji məsələlərlə bağlı ekoafəalların Laçın yolunda etiraz aksiyaları təşkil edən zaman bu qurumun Xankəndi ofisi qanunsuz daşımalar həyata keçirdi və faktiki olaraq qaçaqmalçılıq fəaliyyəti göstərdi. Belə ki, Azərbaycan Dövlət Sərhəd Xidməti (DSX) BQXK-nin nəqliyyat vasitələri ilə gömrükdə bəyan olunmayan mobil telefonların, onların ehtiyat hissələrinin, siqaret və benzinin daşınması hallarını aşkarlamışdılar. Bütün bu hallar DSX tərəfindən yerində aparılan əməliyyat çəkilişi vasitəsilə qeydə alınmışdı. Bu barədə BQXK-nın rəsmi kanalları vasitəsilə xəbərdarlıq edilsə də, qanunsuz əməllər təkrarlanmış və onların qarşısının alınması üçün lazımi addımlar atılmamışdı.

İndi bu təşkilatın Xankəndi ofisi Bərdəyə köçərək orada fəaliyyət göstərdiyini bəyan edib. Bununla da BQXK-nin Azərbaycanda ofislərinin sayı ikiyə çatdı. Ancaq buna ehtiyac varmı? Müharibə bitib, Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Buna görə də, BQXK-nin Azərbaycan ərazisində fəaliyyətinə hər hansı bir zərurət qalmayıb. BQXK-nin çamadanlarını yığıb Azərbaycanı tərk etməsi artıq zərurətə çevrilib. Onun indi başqa qaynar nöqtələrdə işləməsinə ehtiyac var.

***S.ELAY***
***XQ***



# Mövqelərimiz Ermənistandan atəşə tutulub

**Aprelin 9-da saat 10:40 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə verilən digər məlumata görə, həmin gün saat 16:00-dan 16:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Arpa yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Cəhazir yaşayış məntəqəsi istiqamətindəki mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub. Bu dəfə də bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

## Hərbi pilotlar təlim-məşq uçuşlarında

***Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin helikopter bölmələri ilə təlim-məşq uçuşları həyata keçirilib.***

Uçuşdan əvvəl şəxsi heyətin nəzəri bilikləri yoxlanılıb, hərbi pilotlara təhlükəsizlik qaydaları çatdırılıb.



Bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə uçuşlar edən helikopterlər gündüz və gecə vaxtı havaya qalxma və yerə enmə, hava kəşfiyyatının aparılması, eləcə də digər fəaliyyətlər üzrə tapşırıqları yerinə yetiriblər.

***XQ***

# Azərbaycanın Səməndər quşu

(əvvəli 1-ci səhifədə)

Xocalını dirçəldənlər sırasında erməni vandallarının eyni tale yaşatdıqları, uşaq yaşlarında Meşəlidən, Kosalardan, Cəmillidən, Umudludan, Sırxavənddən... didərgin düşənləri görmək də son dərəcə qutsal bir yurdsevərlik timsalı kimi öyünc doğurur...









Xocalıda atasını da, anasını da itirmiş uşaqların böyüyüb öz doğma ocağının çırağını yandırmağa gəlməsi isə xalqımızın Vətən sevgisinin insana sonsuz sevinc yaşadan bir duyğu olaraq təzahür etməsi demək deyilmi?..

Bir vaxtlar yerli "hökumət"in – Xocalı sovetinin sədri olmuş Sovet Allahverdiyevin bir neçə aydır ki, kütləvi məzarlıqların aşkarlanmasına rəhbərlik etməsi, artıq 12 həmyerlisinin qalıqlarının tapılmasına nail olması və bu qeyrət işini inadla davam etdirməsi xalqımızın daha bir yüksək mənəvi keyfiyyətini nümayiş etdirir...

AMEA Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları isə antik Xocalı mədəniyyətinin izlərini qoruyub saxlamış, düşmənin qarət edib dağıtdığı qəbiristanlıqda apardıqları indiki tədqiqatla bu yeraltı muzeyin qədim türklərə məxsus olduğunu bir daha sübuta yetirirlər...

Bütün bunlar barədə qəzetimizin Xocalıda ezamiyyətdə olan əməkdaşı Tahir Aydınoğlunun hazırladığı yazıda XQ-nin növbəti sayında daha geniş söhbət açılacaq.

***XQ***

# Qeyri-etik paylaşım edənlər saxlanılıb



**Sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə uyğun olmayan qeyri-etik paylaşımlar və çağırışlar edən şəxslər polis əməkdaşları tərəfindən müəyyən olunublar.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirlər nəticəsində 1996-cı il təvəllüdlü, "Magerramoff" ləqəbli Əmrah Məhərrəmov, 2003-cü il təvəllüdlü, "Miri" ləqəbli Mirnamiq Mirələmzadə saxlanılıblar.

Müvafiq qərarla Ə.Məhərrəmov 20, M.Mirələmzadə 30 sutka inzibati qaydada həbs edilib.

DİN-dən bildirilib ki, sosial platformalarda, xüsusilə də canlı yayımlar zamanı cəmiyyətə qarşı açıq hörmətsizlik, mənəvi dəyərlərə zidd davranışlar sərgiləyən şəxslərə qarşı müvafiq tədbirlərin görülməsi davam etdirilir.

***XQ***

# İran XİN-dən Brüssel görüşünə münasibət

**İran Xarici İşlər Nazirliyi aprelin 5-də Brüsseldə keçirilmiş Avropa İttifaqı–ABŞ–Ermənistan üçtərəfli görüşünə münasibət bildirib.**



İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani Brüssel görüşü ilə bağlı sualı cavablandırarkən deyib ki, Cənubi Qafqaz geosiyasi rəqabət meydanına çevrilməməlidir.

Onun sözlərinə görə, sülh və sabitliyin bərqərar olması üçün regional əməkdaşlıq vacibdir.

"Bu baxımdan regional formatların imkanlarından, o cümlədən "3+3" formatından istifadə etmək əhəmiyyətlidir. Bu xüsusda sülh və sabitliyi möhkəmləndirmək və qarşılıqlı fayda əsasında əməkdaşlığı gücləndirmək lazımdır", – sözçü qeyd edib.

***XQ***

# Cənubi Qafqaz: geosiyasi təsirlər fonunda




**I MƏQALƏ**

## Postmüharibə mərhələsi

Postmüharibə mərhələsində Cənubi Qafqazın geosiyasi mənzərəsinə nikbin yanaşanlar az deyil. Azərbaycan II Qarabağ savaşından sonra regional miqyasda pozitiv geosiyasi ab-hava yaratmışdır. Bunun fonunda Bakının burada geosiyasi rolu yeni səviyyəyə yüksəlmişdir. Hazırda Azərbaycan Türkiyə ilə birlikdə regional geosiyasətin aparıcı konstruktiv istiqamətini həyata keçirir.

Lakin belə görünür ki, məhz bu gedişat bir sıra böyük dövlətləri qane etmir. Onlar öz ssenarilərinə uyğun olaraq faktiki surətdə regionu parçalayan xətti dirçəltməyə çalışırlar. Bunun üçün isə həmişə olduğu kimi, öz "maşa"larından – ermənilərdən istifadə edirlər. Bu baxımdan vəziyyət kifayət qədər ciddi və təhlükəlidir. Meydana yeni risklər çıxır. Regional miqyasda təhlükələrdən Azərbaycan Prezidenti İlham Əliyev də konkret danışmışdır. Rəsmi Ankara narahatlığını bildirmişdir. Rusiya tərəfdən həyəcanlı informasiyalar gəlməkdədir. Deməli, dərinlərdə elə proseslər baş verir ki, onların tam təzahürləri hələ olmasa da, yaratdıqları riskləri hiss edirlər. Burada təsirlər üç istiqamətdəndir.

## Birinci istiqamət: Qərbin Ukrayna və Qəzza fiaskosu

Qərbin Cənubi Qafqazda fəallaşdığı haqqında media vasitələri, demək olar ki, hər gün yazırlar. İndi həmin fəallıq yeni səviyyəyə keçmişdir. Əgər əvvəllər Qərb dövlətləri (ABŞ+Aİ üzvləri) daha çox informasiya, diplomatiya və xəbərdarlıq üsullarından istifadə edirdilərsə, indi bunlara real hərbi-təxribat və hibrid xarakterli addımları əlavə etmişlər. Bu prosesdə, hələlik, aparıcı rolu Fransa oynayır. Həm də bu dəfə qəribədir ki, təsir dairəsini bir qədər də geniş götürmüşdür – bütövlükdə, postsovet məkanı. Rusiyadakı terrorda rəsmi Moskvanın E.Makronu günahlandırması bu baxımdan bir qədər gözlənilməz oldu. Çünki indiki geosiyasi qarışıqlıqda Fransa dövlətinin terrorla postsovet məkanında nəyə nail ola biləcəyi qeyri-müəyyəndir. Üstəlik, Ukraynada vəziyyət getdikcə Qərb üçün xoşagəlməz hal alır.

Hər halda, indi Rusiyadakı terror prizmasında Cənubi Qafqazda da təhlükələrin meydana gəldiyindən bəhs edirlər. Ayrıca, Azərbaycan xüsusi xidmət orqanları da ola biləcək risklərdən bəhs etmişdir. Deməli, siyasətin hansısa qatında geniş bir məkanda geosiyasi konfrontasiya kursunu yeni mərhələyə keçirməkdədirlər ki, Cənubi Qafqaz o proseslərin episentri təsiri bağışlayır.

Qərbin bu cür oynaması yalnız demokratiya və liberalizm üçün deyil, bütövlükdə, dünya təhlükəsizliyi üçün çox təhlükəlidir. Bu prizmadan baxanda Brüsseldə ABŞ, Aİ və Ermənistan nümayəndələrinin görüşməsi həmin təhlükənin konkret nümunəsi kimi görünür. Bu görüş regional təhlükəsizlik üçün birbaşa riskdir. Orada hansı razılığa gəlinməsindən çox, görüşün formatı və müzakirə mövzusu düşündürücüdür. Çünki Brüsseldə Cənubi Qafqazın geosiyasi taleyi ilə bağlı məsələləri bu regiondan olan tək Ermənistanla müzakirə edib, hansısa qərar vemək bəri başdan pozucu fəaliyyətdir. Gürcüstan bununla bağlı səsini çıxarmır. Səbəbini başa düşürük. Lakin rəsmi Tbilisi anlamalıdır ki, indi ona əhəmiyyətsiz görünən proses sonradan dərin fəsadlara yol aça bilər. Ən azı ona görə ki, region üçün vacib saydıqları problemləri Tbilisi olmadan müzakirə etmişlər. Ola bilsin ki, burada Gürcüstan rəhbərliyi Rusiya faktorunu nəzərə alır. Lakin təcrübə göstərir ki, bu cür fəndlərin təsir müddəti çox qısa olur. Yalançının yaddaşı kimi...

Azərbaycanın reaksiyası isə özünə hörmət edən müstəqil dövlətin davranışına nümunədir. Prezident İlham Əliyev görüş ərəfəsi aydın ifadə etdi ki, Brüsseldə nəzərdə tutulan görüş formatı regionun geosiyasi maraqlarına cavab vermir. Orada bir sıra risklər mövcuddur. Həmin sırada Azərbaycanı regionda geosiyasi təcrid etmək niyyəti də vardır. Bunun fonunda Brüsseldə kimin kimə nə qədər pul verəcəyi və ya hansı artilleriyanı ermənilərə satacağı elə də əhəmiyyətli deyil. Çünki Azərbaycan həm maliyyədə, həm də hərbi gücdə Ermənistanı bir neçə dəfə qabaqlayır və yeri gələrsə, bu fərqi daha da artıra bilər. Bu tezisi təsdiq edən faktları irəlidə vurğulayacağıq.

Azərbaycan və bütövlükdə, region üçün riskli olanı məhz həmin görüş formatının regionun iki dövlətini arxa plana atmaq cəhdi ilə bağlıdır. Bəs bu, Qərbin nəyinə lazımdır? Avropa və ABŞ indi nədən ehtiyat edirlər?

Məsələ ondan ibarətdir ki, Qərb qlobal miqyasda daha çətin və mürəkkəb duruma düşmüşdür. O, iki istiqamətdən ciddi zərbələr alır. Birincisi, Ukrayna planı fiaskoya uğramışdır. Avropalı vergiverənlər pullarının hara getdiyini öz hökumətlərindən soruşmağa başlamışlar. Ukrayna ordusu cəbhədə əvvəlki kimi inamlı döyüşə bilmir. V.Zelenski artıq hərbi qələbədən yox, danışıqların dünya formatından dəm vurur. Bu zaman da özünün yanlış strateji xəttini deyil, ona yardım edən böyük dövlətləri günahlandırmağa çalışır. Bu, aydın surətdə diqqəti kənara çəkmək cəhdindən başqa bir şey deyil. Və Ukrayna kimi bir dövlətin və xalqın bu vəziyyətə düşməsində Qərbin təqsiri çox böyükdür. Məhz onların şişirdilmiş dəstək mesajları, vəziyyəti Rusiya üçün pisləşdirmək niyyətləri Ukraynanı və onunla birlikdə, bütövlükdə, Şərqi Avropanı mürəkkəb duruma saldı.

İkinci zərbəni Qərb Yaxın Şərqdə HƏMAS-dan alır. İsrailin Qəzzaya hücumu ərəfəsi Qərbin bütün güclü dövlətləri Tel-Əvivin yanında olduğunu bəyan etdilər, regiona hərbi texnika və silah göndərdilər. Hətta ABŞ göndərdiyi yardımı reklam da etdi. Lakin getdikcə aydın oldu ki, Yaxın Şərqdə də Qərbin geosiyasi fiaskosu gözlənilir. İsrail indiyədək nə müharibəni uda bildi, nə də HƏMAS-ın müqavimətini qırmağı bacardı. Aldığı hərbi zərbələr və meydana gələn ölümlər və dağıntılar Qərbi yenidən düşünməyə məcbur edir. İndi ABŞ və Avropa İsraili inandırmağa çalışırlar ki, müharibəni dayandırıb, danışıqlara başlamaq lazımdır. Həmin danışıqlarda HƏMAS-ın münaqişə öncəsi dediyi bir məsələ təsdiqini tapır. HƏMAS bəyan etmişdi ki, danışıqlar olacaq və İsrail bütün əsir fələstinliləri buraxacaq. Bu proses indi yavaş-yavaş gedir. Son məlumatlarda isə İsrailin Qəzzanın cənubundan qoşunları çıxarmaq məcburiyyətində qaldığı ifadə edilir.

Bu gedişatın geosiyasi ifadəsi ondan ibarətdir ki, Qərb artıq Yaxın Şərqdə İsrail – HƏMAS münaqişəsinin fonunda geosiyasi iflasa uğramaqdadır. İndi onların dərdi İsrailin bu savaşdan necə salamat çıxarılması ilə bağlıdır. Bəs, bunu necə etmək olar?

Əgər Qərb üçün yaranmış geosiyasi vəziyyətə Ukrayna ilə Fələstin məsələlərinin sintezindən baxsaq, görərik ki, Qərb yeni münaqişə ocaqları yaratmaqla həm Ukrayna, həm də İsrail məsələlərini arxa plana atmağa çalışa bilər. Əks-halda nə Şərqi Avropada, nə də Yaxın Şərqdə uğura nail ola bilməyən siyasi və geosiyasi dairələr Cənubi Qafqaz kimi mürəkkəb bir məkanda vəziyyəti kökündən dəyişə bilər? Hansı arqumentə görə, kimsə hesab edə bilər ki, Qərb Cənubi Qafqazda bir tərəfdən Azərbaycan – Türkiyə birliyinə, digər tərəfdən isə Rusiyaya qalib gələ bilər? Gücü olsaydı, Ukraynada təklənmiş Rusiyaya qalib gələrdi. Və ya bir təşkilat olan HƏMAS-la mübarizədə üstünlük əldə edərdi. Bunların əvəzində hazırda gülünc vəziyyətdə qaşqabağını sallayıb durur. Eyni zamanda, barmaqlarını Cənubi Qafqaz tərəfə uzatmaqdan da çəkinmir.

Beləliklə, indi Brüsseldə "maşa" Ermənistana pul və hərbi silah vəd edən Qərb əlində yağ olsaydı, Şərqi Avropa və Yaxın Şərqdəki uğursuzluğuna görə öz başına çəkərdi. Buradan Brüssel şousunun əsas məqsədi aydın olur: Cənubi Qafqazda qarışıqlıq yaratmaq! Ermənistanın qələbəsindən söhbət gedə bilməz. Rusiyanı burada sıxışdırmaq absurd xülyadır. Türkiyə – Azərbaycan tandemini zəiflətmək də xam xəyaldır (faktlar indidən bunu təsdiq edir). Bəs, regionda su bulandırmağın Qərbə nə faydası ola bilər?

Bircə faydası ola bilər: Avrasiya məkanında geosiyasi ziddiyyətli situasiya yaradıb, prosesləri xaotik dinamikada idarə etmək imkanı qazanmaq. Bu xaotik dinamika isə ABŞ və Avropaya fürsət düşəndə əsas olaraq Çin istiqamətində hücuma keçməklə bağlıdır. Təbii ki, "yol üstündə" Rusiya ilə də haq-hesabı çürütmək fəna olmazdı.

Lakin, məncə, Uinston Çörçill bu məsələdə də haqlıdır ki, amerikalılar yalnız bütün yanlış yolları sınaqdan keçirəndən sonra düzgün qərar verə bilirlər! Bu da ABŞ-ın növbəti yanlış hesabları və proqnozlarıdır. Bu tezis ritorikadan və ya kimlərəsə mənfi münasibətdən yaranmamışdır. Cənubi Qafqazda realpolitika prizmasında güclərin müqayisəsindən yaranmışdır. Konkret faktlara keçək.

Həmin faktlar regiona olan ikinci və üçüncü istiqamətlərdən qaynaqlandığından onlara öncə ayrı-ayrılıqda baxaq.

## İkinci istiqamət: "rus ruleti"

Beləliklə, Qərbin Brüsseldə ermənilərə verdikləri vədlər Cənubi Qafqazda ürək bulandırır və aranı qatmağa yönəlmişdir. Buna Rusiyanın çevik reaksiyası gözlənilən idi. Moskva reaksiya verdi, lakin adəti üzrə ağılla deyil, hiss və duyğusallıqla. Rusiyanın rəsmi adamları, faktiki olaraq, Qərbə qarğış edir və hədələyirlər. Terror aktında verilən itkilərin emosional təsiri ilə çox sərt ifadələr işlədirlər. Lakin bununla kifayətlənmirlər. Onlar Cənubi Qafqaza geniş diplomatik desant atmışlar. Rusiya burada geosiyasi vəziyyəti öz xeyrinə saxlamaq istiqamətində konkret addımlar atmağa başlamışdır. Lakin, təəssüf ki, həmin addımlar ənənəvi olaraq "rus ruleti"ni xatırladır. Yəni, yeni konstruktiv, regionda geosiyasi vəziyyəti daha pozitiv edə biləcək təklif eşidilmir. Əvvəlki "arqumentlər" təkrar olunur: "rus dünyası", "rus dili", "rus mədəniyyəti" və s.

Reallıqda bunlar mövcud geosiysi vəziyyətə uyğun olmayan "arqumentlər"dir. Çünki indi söhbət müstəqil dövlətlərdən gedir. Ayrıca, Azərbaycanla Rusiya strateji müttəfiqlərdir, biri digərindən asılı deyildir. Azərbaycan həmişə konkret, qarşılıqlı fayda verən proqramlar üzrə Rusiya ilə əməkdaşlığa hazırdır. Lakin indi, bütövlükdə, Qərbin təxribatları fonunda kiminsə Cənubi Qafqazda öz dünyası, mədəniyyəti və dilini yaratması xam xülyadır. Belə çıxır ki, Moskva Cənubi Qafqazda müəyyən mənada özü-özü ilə "rus ruleti" oynayır.

Bu da riskli və təhlükəli ola bilər. Lakin Cənubi Qafqazda Rusiyanın geosiyasi maraqlarının olmadığını kimsə deyə bilməz. Moskvanın burada maraqları vardır və onun təmin olunması üçün mübarizə apara bilər. O da faktdır ki, Rusiyanın bu regionda həqiqi və real strateji müttəfiqi yalnız Azərbaycandır. Ermənistan ikili oyun oyun oynaya-oynaya quyunun kənarına çatmışdır. Bir dəfə də "geosiyasi rəqs" etsə, quyuya yuvarlanacaq. Zatən, Ermənistanın real geosiyasi oyunçu olmaq potensialı və real gücü də yoxdur. Bunu indi, hətta, bir sıra erməni ekspertlər də etiraf edirlər. Onlar "Ermənistan qudurmuşdur" ifadəsini tez-tez işlədirlər.

Gürcüstanın da Rusiyaya strateji müttəfiq olması absurddur. Rəsmi Tbilisi bütün manevrlərinə baxmayaraq, birmənalı Qərbə istiqamətlənmişdir. Gürcü cəmiyyəti Avropa İttifaqına üzv deyil, namizəd olmağı böyük sevinclə qarşılamışlar. Gürcüstan rəsmiləri rəsmi görüşlərdə Gürcüstan bayrağının yanına Rusiyanın deyil, Aİ-nin bayrağını qoyurlar. Bu seçimdə Gürcüstanı kimsə qınaya bilməz – müstəqil dövlət kimi öz yolunu müəyyən etmişdir. Ancaq burada geosiyasi baxımdan əhəmiyyətli məqamlar vardır.

Məsələ ondan ibarətdir ki, həqiqi mənada müstəqil dövlət birtərəfli deyil, hərtərəfli vəziyyəti nəzərə alaraq geosiyasi seçim etməlidir. Yəni, burada dixotomik seçim deyil, çoxaspektli seçim daha doğrudur. Regiona təsir edən böyük güclərdən hansınınsa tərəfini tutmaq deyil, onların maraqlarını milli maraqlara görə balanslaşdırma strateji baxımdan doğrudur! Cənubi Qafqazda yalnız Azərbaycan bu seçimi etmişdir. Bu səbəbdən, Rusiya Azərbaycanla səmimi və bərabərhüquqlu münasibətlər qurmaqla Cənubi Qafqazda rəqabətədavamlı geosiyasi konfiqurasiyanın yaradılmasında aktiv iştirakçı ola bilər! Buna necə nail olmaq mümkündür?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycanda "Dayanıqlı İnkişaf" davamlı və əlçatandır

**Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf Hesabatı"na əsasən, Azərbaycan bu gün dünyanın 163 ölkəsi arasında "Davamlı İnkişaf Məqsədləri İndeksi" üzrə 50-ci yerdə qərarlaşıb. Belə bir göstəriciyə görə, respublikamız Cənubi Qafqaz regionunda (Gürcüstan 51-ci yer, Ermənistan 66-cı yer) liderliyə yüksəlib.**




Hesabatda ölkəmiz yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, yoxsulluğa son, təmiz su və sanitariya, davamlı şəhərlər və icmalar, məsuliyyətli istehsal və istehlak, iqlim dəyişikliyinə qarşı mübarizə və torpaq ekosisteminin mühafizəsi məqsədləri üzrə irəliləyişə nail olub.

Xatırladaq ki, BMT-nin "Davamlı İnkişaf Məqsədləri İndeksi" hər bir ölkənin 2030-cu ilədək müəyyənləşdirilən dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün hansı mövqedə olduğunu qiymətləndirmək üçün aparılır. Hesabat dayanıqlı inkişaf üzrə 2030-cu il gündəliyində nəzərdə tutulan 17 ümumbəşəri inkişaf məqsədlərini əhatə etməklə hazırlanır. Bu sənəd hazırlanan zaman fərqli indikatorlardan istifadə olunur, iqtisadi- sosial sahələrdə reallaşdırılan islahatların nəticəsi kimi makroiqtisadi və sosial göstəricilər hesabatda öz əksini tapır.

Azərbaycanın sonuncu "Dayanıqlı İnkişaf Hesabatı"nda "davamlı inkişaf məqsədləri indeksi" üzrə 50-ci yerdə qərarlaşması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi, eyni zamanda, beynəlxalq qiymət kimi xarakterizə olunur.

Bütün bunlar barədə "2021–2025-ci illər üçün BMT–Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nin icrası üzrə Hökumət–BMT Birgə İstiqamətləndirici Komitənin iclasında ətraflı danışılıb. BMT-nin ölkəmiz üzrə Rezident Əlaqələndiricisi Vladanka Andreeva tədbirdəki çıxışında respublikamızda DİM-ə dair xərclərin 2023-cü ildə 32,2 milyon dollar olduğunu, bu resursun 59 faizinin daha güclü təsisatlara, 21 faizinin inklüziv inkişafa və 3 faiziinin gender bərabərliyinə xərcləndiyini, cari ildə isə bu istiqamətlər üzrə xərclərin 37 milyon dollar təşkil edəcəyini bildirib.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası Katibliyinin rəhbəri, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov isə mikro, kiçik və orta sahibkarların ÜDM-də payının 35 faizə çatdırılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb. H.Hüseynov, eyni zamanda, Azərbaycanın işğaldan azad edilən ərazilərində DİM ilə bağlı fəaliyyətinin genişləndirilməsinə ciddi ehtiyac yarandığını diqqətə çatdırıb: "BMT layihələri təkcə paytaxtı deyil, regionları da əhatə etməlidir. Burada xüsusilə diqqət Qarabağ və Şərqi Zəngəzura yönləndirilməlidir. Reinteqrasiya prosesini nəzərə alaraq düşməndən təmizlənən ərazilərdə inklüziv artımın təmin edilməsi, sosial institutların gücləndirilməsi, əhalinin təminat və səhiyyə xidmətlərinə çıxışının artırılması kimi layihələrin növbəti mərhələdə daha çox dəstəklənməsi zəruridir", – deyə o, vurğulayıb.

İclasda iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, ölkə Prezidenti İlham Əliyev minatəmizləmə fəaliyyətinin 18-ci DİM kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi təşəbbüsünü irəli sürüb: "COP29 Azərbaycanın 18-ci Milli DİM layihəsinin beynəlxalq ictimaiyyətdə təşviq olunması üçün də mühüm platforma rolunu oynaya bilər. BMT ilə birgə gerçəkləşdirilən layihələr isə iqlim dəyişikliyi ilə mübarizə, uyğunlaşma, COP29-un ölkəmizdə uğurla keçirilməsi və digər sahələrlə bağlı ölkəmizin prioritetlərinin icrasını şərtləndirir".

Nazir müavininin sözlərinə görə, işğaldan azad edilən torpaqların reinteqrasiyası, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası zamanı BMT-nin və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınıb: "Artıq "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin etməyə başlayıb. Bu ərazilərdə "yaşıllaşma və karbonsuzlaşma" sahəsində xarici investisiyalı müəssisələrin yaradılması ilə bağlı uğurlu addımlar atılıb. COP29 vasitəsilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Karbon neytrallığı" konsepsiyası əsasında layihələrin icrası barədə maraqlı tərəflərin daha geniş məlumatlandırılması zəruriliyi də qarşıya mühüm vəzifə kimi qoyulub".

Sahib Məmmədov çıxışında onu da qeyd edib ki, Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncama əsaslanaraq, eyni zamanda, bu ilin noyabrında ölkəmizdə COP29-un təşkilini nəzərə alaraq, Çərçivə Sənədi üzrə ekoloji layihələrə üstünlük verilməsi məqsədəuyğundur.

Nazir müavini çıxışında, həmçinin qeyd edib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda təşkili ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli tərəfdaş mövqeyini təsdiqləyir və BMT ilə münasibətlərimizdə yeni səhifə açır. Ölkəmizin iqlim dəyişikliyi məqsədlərinin qlobal çağırışlarla sıx uzlaşması bizim üçün müəyyən təcrübə yaradır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilib və bu istiqamətdə beynəlxalq tərəfdaşlarla əməkdaşlığa dair imzalanan sənədlərdə də ətraf mühit və iqlim məsələlərinə xüsusi yer verilib.

Göründüyü kimi, respublikamızda son illərdə reallaşdırılan islahatlar bir tərəfdən iqtisadiyyatın inkişafı, eləcə də dayanıqlığın və inklüzivliyin təmin edilməsinə əlverişli şərait yaradıb. Digər tərəfdən isə bu, sosial təminatın gücləndirilməsi üçün yeni imkanlar açıb. Azərbaycanda sosial paketlərin icrası ilə həm minimum əməkhaqqının, həm də orta aylıq əməkhaqqının təxminən bir neçə dəfə artımının reallaşması da sosial təminatın daha da gücləndirilməsini şərtləndirib.

Respublikamızın BMT-nin "davamlı inkişaf məqsədləri indeksi" üzrə regional liderə çevrilməsi faktı bir daha göstərir ki, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan qlobal gündəliyin formalaşmasında və həyata keçirilməsində əhəmiyyətli rola malik ölkədir.

Şübhəsiz ki, hesabatda əksini tapan məqamların əsasında dayanan əsas amillərdən biri də Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatlardır. Belə ki, dövlət başçısının reallaşdırdığı islahatlar, müasir iqtisadi və sosial infrastrukturun formalaşdırılması ölkə iqtisadiyyatının sürətli inkişafını, onun rəqabət qabiliyyətinin yüksəlməsini təmin edir. Eyni zamanda, Azərbaycanda gerçəkləşdirilən sosial siyasət nümunəvi xarakter daşıyır. Son illərdə həyata keçirilən və ölkə əhalisinin rifahının yüksəlməsində mühüm rol oynayan böyük sosial paketlər də bunun bariz ifadəsidir.

Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, yoxsulluğun azaldılması, səhiyyə sisteminin müasir standartlara uyğun yenidən qurulması, əhalinin kommunal çətinliklərinin, o cümlədən içməli su probleminin səmərəli həlli, ölkənin enerji təhlükəsizliyinin təmin olunması, mövcud olan təhlükəsizlik, milli həmrəylik mühiti, ümumiyyətlə, 20 ildən artıq bir müddət ərzində Azərbaycanın inkişaf strategiyasının uğurla reallaşdırılması beynəlxalq səviyyədə, dünyanın aparıcı siyasi, iqtisadi, maliyyə və digər qurumları tərəfindən də etiraf olunub.

Hazırda qarşıda duran ən mühüm məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu gün ölkədə aparılan hər bir iqtisadi islahatın əsasında sosial problemlərin aradan qaldırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və hər bir vətəndaşın rifahının artırılmasına imkan verən mühitin yaradılması məqsədi dayanır. Belə bir mühitin mövcudluğu isə dayanıqlı iqtisadi inkişafın reallaşdırılması, maliyyə sisteminin, sahibkarlıq mühitinin inkişaf etdirilməsi, insanların hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi yolu ilə, həmçinin sosial problemlərin birbaşa həllinə yönələn tədbirlər vasitəsilə həyata keçirilə bilər.

Azərbaycan hazırda bütün sahələrdə öz nümunəsini ortaya qoyaraq özünü dünyaya güclü, müstəqil və müasir inkişaf edən ölkə kimi tanıdıb. Dövlət rəhbəri bəyan edib ki, qarşıda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Respublikamızın iqtisadi inkişaf dinamikası əvvəlcə resurslara əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempinə malikdir.

Dünyanın iqtisadi cəhətdən qabaqcıl dövlətlərinin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini qısa zaman kəsiyində sürətlə adlamış Azərbaycan azad və mütərəqqi düşüncə tərzinin diktə etdiyi bazar iqtisadiyyatı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna sadiqliyini sübuta yetirib.

***Vaqif BAYRAMOV***
***XQ***

# İqtisadiyyat şaxələnir, ölkəmiz güclənir

**"Fitch Group"a aid olan "Fitch Solutions" (FS) şirkəti Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozunda bildirilib ki, respublikamızda adambaşına düşən ÜDM məzənnə sabitliyi nəzərə alınmaqla 2023-cü ildəki 8 min 612 ABŞ dollarından 2033-cü ildə 16 min 699 ABŞ dollarına kimi yüksələcək.**




FS qeyd edib ki, nominal artan gəlirlər və istehlak neft-qaz sektorundan kənarda iqtisadiyyatın diversifikasiyasına müəyyən dəstək verəcək. Bu amillər iqtisadiyyatın uzunmüddətli perspektivdə davamlılığı üçün xüsusi əhəmiyyət kəsb edəcək, çünki enerjidən həddən artıq asılılıq Hollandiya sindromu risklərini artırır.

"Fitch Solutions" vurğulayıb ki, Azərbaycan hökuməti iqtisadiyyatın şaxələndirilməsinin zəruriliyini dərk edir və bu riski azaltmaq üçün bir sıra tədbirlər həyata keçirməyi planlaşdırır: "Bunlara qeyri-neft vergi siyasətinin hərtərəfli nəzərdən keçirilməsi, sabit vergi sisteminin tətbiqi və orta ölçülü şirkətlərin inkişafına dəstək üçün aşağı ƏDV-nin tətbiqi daxildir. Bundan əlavə, hökumətin hazırda infrastrukturun, xüsusilə enerji və nəqliyyatın təkmilləşdirilməsi ilə bağlı bir neçə iddialı planları da var. Bu amillər iqtisadi artımı dəstəkləyəcək, rəqabətqabiliyyətli qeyri-enerji sektorunun inkişafına kömək edəcək".

# Suqovuşandan Kəlbəcərə yol çəkilir

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirildiyinə görə, Suqovuşan–Kəlbəcər avtomobil yolunun inşasına başlanılıb. Uzunluğu 80 kilometr, hərəkət hissəsinin eni 9 metr, torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir.**



Hazırda uzunluğu 80 kilometr olan avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə edilməklə yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir.

Layihənin çətin relyefə malik dağlıq ərazidən keçən hissələrində torpaq yatağının genişləndirməsi üçün qaya tipli süxurların mexanizmlə kəsilməsi, layihə eninin alınması üçün qayaların partladılması üsulundan istifadə olunacaq.

Yeni inşa edilən yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Bundan başqa yol boyu 6 körpünün, lazımi yerlərdə istinad divarının inşası da nəzərdə tutulur.

Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

# Qeyri-neft-qaz daxilolmaları 11,3 faiz artıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, 2024-cü ilin yanvar–mart ayları ərzində bu qurumun xəttilə dövlət büdcəsinə 4 milyard 281 milyon 505 min manat vergi daxil olub.**

Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 11,3 faiz artaraq 2 milyard 914 milyon manata çatıb.

Ödənilən vergilərin 68 faizi qeyri-neft-qaz sektorunun, 32 faizi isə neft-qaz sektorunun payına düşüb.

***XQ***

# "Abşeron" – Xəzərin mavi sərvət yatağı

## *Ötən 9 ayda buradan 1,2 milyard kubmetr qaz çıxarılıb*

**"Abşeron" qaz-kondensat yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasilat uğurla davam etdirilir. Energetika Nazirliyinin məlumatına görə, 2024-cü ilin yanvar–mart aylarında sözügedən yataqdan 400 milyon kubmetr qaz hasil olunub.**



"Abşeron" qaz-kondensat yatağı ötən ilin iyulunda istismara verilib. Həmin ayın 10-da "TotalEnergies" və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində qaz və kondensat hasilatına başladığını elan ediblər. Ötən 9 ay müddətində JOCAP (Joint Operating Company of Absheron Petroleum B. V.) əməliyyat şirkəti tərəfindən buradan 1,2 milyard kubmetr təbii qaz və 440 min ton kondensat çıxarılıb.

Qeyd edək ki, "Abşeron" yatağının birinci işlənmə çərçivəsində hasil edilən qaz Azərbaycanın daxili bazarı üçün nəzərdə tutulub. İlkin mərhələdə buradan ildə, təxminən, 1,5 milyard kubmetr qaz hasil edilməlidir. Bu da Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək. Gələcəkdə yataqdan hasilatın dörd dəfəyədək artırılması planlaşdırılır. Bu isə "Abşeron" yatağının növbəti işlənmə mərhələsi çərçivəsində mümkün olacaq. Xatırladaq ki, yatağın tammiqyaslı işlənmə mərhələsi ilə bağlı yekun investisiya qərarının 2024-cü ilin sonunadək qəbul edilməsi nəzərdə tutulur. Hazırda layihənin iştirakçıları olan SOCAR, "TotalEnergies" və "ADNOC" şirkətləri yekun investisiya qərarı ilə bağlı məsləhətlər keçirirlər. Yekun investisiya qərarının nəzərdə tutulmuş vaxtda qəbul edilməsi "Abşeron" yatağının tammiqyaslı işlənilməsi çərçivəsində ilk qazın 2028-ci ildə əldə olunmasına imkan yaradacaq. Bu mərhələ çərçivəsində yataqdan ildə 5-6 milyard kubmetr qazın çıxarılması nəzərdə tutur. Yeri gəlmişkən, ikinci mərhələ çərçivəsində çıxarılacaq qazın xarici bazarlarda satılması planlaşdırılır.

Xatırladaq ki, "Abşeron" qaz-kondensat yatağı ötən əsrin 60-cı illərində Azərbaycan geoloqları tərəfindən kəşf edilib. Həmin dövrdə mövcud texnika və texnologiyalar Xəzər dənizinin dərinliklərində qazma işlərinə imkan vermədiyindən yatağın istismarı mümkün olmayıb. Nəhayət, 1997-ci ildə "Abşeron" yatağı üzrə hasilatın pay bölgüsünə dair birinci beynəlxalq saziş imzalanıb. Layihə çərçivəsində görülən işlər uğursuz nəticələndiyindən 2005-ci ildə müqaviləyə xitam verilib. Bununla belə, Azərbaycan geoloqları, Dövlət Neft Şirkətinin mütəxəssisləri "Abşeron" yatağında məhsuldar layların olması ilə bağlı əvvəlki fikirlərində israrlı idilər. Eyni zamanda, xarici tərəfdaşlar da burada kifayət qədər karbohidrogen ehtiyatlarının olmasını ehtimal edirdilər.

Məhz bunun nəticəsi olaraq 2009-cu il fevralın 27-də Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə "Total" şirkəti arasında "Abşeron" yatağının işlənilməsi ilə bağlı yeni müqavilə imzalanıb. Sazişin 30 il müddətinə həyata keçirilməsi nəzərdə tutulur. 2015-ci ildə isə "SOCAR" və "Total" birgə "JOCAP" (Joined Operating Company Absheron Petroleum) əməliyyat şirkətini yaradıblar. Beləliklə, "SOCAR Absheron" və "Total E&P Absheron" törəmə şirkətlərinin bərabər paylarla iştirak etdiyi JOCAP (Joined Operating Company Absheron Petroleum) birgə müəssisəsi "Abşeron" yatağının operatoru elan olunub.

750 kvadratkilometrə yaxın ərazini əhatə edən müqavilə sahəsində aparılan ilkin kəşfiyyat işləri uğurla nəticələnib. 2011-ci ilin sentyabr ayında "Abşeron"-da çox böyük qaz ehtiyatlarının aşkar olunması rəsmən elan edilib. 2020-ci il sentyabrın 19-da isə Prezident İlham Əliyevin iştirakı ilə Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının ilkin işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinin təməli qoyulub. Ötən müddətdə SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən "Abşeron"da hasilata başlamaq üçün dörd əsas dayaq bloku və digər sualtı qurğular tikilib. Tikinti layihəsi çərçivəsində ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklar, körpülər, estakadalar, məşəl sistemi, sualtı qurğular, boru xətti və modullar inşa edilərək müqavilə sahəsində quraşdırılıb.

2023-cü ilin ilin yayında ilkin hasilata başlanıldığından bir qədər sonra isə "Abşeron" layihəsi ilə bağlı daha bir əlamətdar hadisə baş verib. Belə ki, avqust ayının 4-də SOCAR, "TotalEnergies" və ADNOC (Birləşmiş Ərəb Əmirlikləri) şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışına dair saziş imzalanıb. Satınalma tamamlandıqdan sonra ADNOC şirkəti "Abşeron" qaz-kondensat yatağında həmin paya sahib olub. Yerdə qalan iştirak payı isə hər biri 35 faiz olmaqla SOCAR və "TotalEnergies" şirkətləri arasında bölünüb.

Xəzər dənizində, "Azəri–Çıraq–Günəşli" yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir. Yeri gəlmişkən, Xəzər dənizində "Şahdəniz"dən sonra ikinci ən böyük qaz yatağı sayılan "Abşeron"un karbohidrogenlərlə zənginliyi artıq beynəlxalq səviyyədə də qəbul olunur. Bu fakt OPEC-in və "Fitch Ratings" beynəlxalq reytinq agentliyinin hesabatlarında da əksini tapıb. "Fitch Ratings"in ötən ilin oktyabrında yaydığı məlumatda "Abşeron" qaz-kondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğu və onun işə salınması ilə SOCAR-ın biznes profilinin yaxşılaşdığı bildirilir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***




**"MATANAT A" Şirkətlər Qrupu xalqımızı Ramazan bayramı münasibətilə təbrik edir, hər kəsə sağlamlıq, xoşbəxtlik, firavanlıq və bol ruzi-bərəkət arzulayır.**

# 11 ayın sultanı – paklıq, iman bayramı

## Vətənin bütövlüyünü, xalqın Zəfərdən doğan həmrəyliyini özündə ehtiva edən Ramazan coşqusunu yaşamaq bir ayrı xoşbəxtlikdir

**Bütün İslam aləmində, Türk dünyasında xoş məram, ehtiram, xeyirxahlıq, qardaşlıq kimi bəşəri dəyərlərin bölüşüldüyü müqəddəs bir bayramın coşqusunu yaşayırıq. Birliyimizi və həmrəyliyimizi daha da gücləndirən, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı – Ramazan başa çatdı. Builki Ramazan həm də bütövləşən, gündən-günə abadlaşan Azərbaycanın hər bir vətəndaşı üçün mənəvi-əxlaqi zənginliyin fərəhini yaşamaq, Ulu Tanrı qarşısında öz vicdanı borcunu və vəzifələrini yerinə yetirmək fürsəti oldu.**



Sıralarımızı səf tutub bərabər olmanın, eyni duyğu və düşüncələri bölüşməyin fəxarətini yaşadan Ramazan bayramını İlahinin lütfü kimi qəbul edirik.

Bu bayram həm də dostları ziyarət, küsülüləri barışdırmaq, uşaqları sevindirmək, dünyasını dəyişənləri yada salmaq fürsətidir. Çünkü Ramazan böyük–kiçik, xəstə–sağlam, uzaq–yaxın demədən sevginin və mərhəmətin böyüyüb genişləndiyi zamanın dilimləridir.

Sevgi və xoşgörüş kimi bəşəri duyğuların pərvazlandığı, rəhm və bərəkət ayı olan Ramazanın sonuna gəldiyimiz bu gün "fitr bayramı"dır. Bu müqəddəs ay boyunca oruc tutmaq hər bir müsəlmana fərz buyrulduğu kimi, Ramazan bayramında fitrə vermək də vacib əməllərdən sayılır. Peyğəmbərimiz Məhəmməd (s.ə.s.) hədislərinin birində deyir ki, Allah bəndəsindən tələb olunan sədəqə verilməyənədək Ramazan ayında tutulmuş oruc, edilən ibadət yerlə göy arasında qalır. Üzümüzü imkanı fitrə verməyə çatmayanlara, bir ac müsəlmanın qarnını doyurmağa yetməyənlərə tutub deyirik: zikr edin və qəlbinizin şəfqət pəncərəsini açıb, hamıya təbəssüm sədəqəsi paylayın. Bir ağız dua, bir qucaq sevgi məsafələri qısaltdığı, könülləri birləşdirdiyi kimi, xəfif bir təbəssüm də bizi bir-birimizə yaxınlaşdırır.

Ramazan bayramı münasibətilə, ilk növbədə, bu fəxarəti və coşqunu bizə canı–qanı bahasına bəxş etmiş şəhidlərimizin doğmalarını, qazilərimizi, bu gün səngərdə Vətənin keşiyində durmuş əsgər və zabitlərimizi təbrik edirik.

Ramazan bayramınız mübarək olsun!

Qəlblərimizdən nur, el-obamızdan əmin-amanlıq, evimizdən dinclik əskik olmasın! Uca Yaradan ibadətinizi və fitrənizi qəbul eləsin. Builki Ramazanla vidalaşarkən deyirik: Həmişə yolunu gözləyirik, on bir ayın Sultanı!

**XQ**

# Ramazan sınağından daha güclü hədəflərə

**Ramazan ayı bitdikdən sonra bütövlükdə əvvəlki qidalanma tərzinə keçmək, xüsusilə yağlı, şəkərli və unlu qidalara müraciət etmək sağlamlıq problemlərinə və çəki artımına səbəb olur. Ramazan bayramında uzun müddət ac qalan mədənin yüklənməməsi, qanda şəkər tarazlığının qorunması, şişkinliyin və kökəlmənin qarşısının alınması üçün düzgün qidalanma vacibdir. Bayram günlərində çoxlu unlu və şəkərli məmulatların istehlakı, xüsusilə, diabet, ürək və böyrək xəstələrinə mənfi təsir göstərsə də, sağlam insanlar üçün də zərərli ola bilər.**



Bu gün bayramdır. Amma bu bayram başqalarına bənzəmir. Çünki bir ay müəyyən fasilə ilə qidalanmağa alışmışıq. Bəs, bayram günlərində orqanizmi həddən artıq yükləməmək üçün necə qidalanmalıyıq? Qeyri-müəyyən qidalanma ən çox ürək-damar, təzyiq problemlərini kəskinləşdirdiyi üçün bu sualla Elmi-Tədqiqat Kardiologiya İnstitutunun ürəyin işemik xəstəlikləri şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mədinə Əzimovaya müraciət etdik. Həkim XQ-yə verdiyi açıqlamada bildirdi:

– Öncə hər kəsin bayramını təbrik edir, ibadətlərinin qəbul olunmasını diləyirəm. Bayramda və ondan sonrakı ilk günlərdə düzgün qidalanmaq orqanizmin sağlamlığı üçün vacib şərtdir. Deyə bilərik ki, Ramazan ayı ilə əlaqədar insanların çoxu idman fəaliyyətindən uzaqlaşır. Bayramla birlikdə bu məşqlərə yenidən başlayanlar idmana keçid etməlidir. İdmana gəzinti ilə başlanmalıdır. Bayram günlərində öncədən olduğu kimi, həddindən artıq idman ürəyin iş yükünü artırır. Bu isə ciddi sağlamlıq problemləri yarada bilər. İstirahətdə koronar qan axını kifayət qədər olsa da, ekstremal fəaliyyətlərdə ürəyi adekvat qidalanma təmin edə bilməz. Bu, infarkta səbəb ola bilər.

Bayramı keçirmək üçün nizam-intizamlı qidalanma vacibdir. Həmin günlərdə, xüsusilə, şirniyyat və xəmir məmulatlarının həddindən artıq istehlakı səbəbindən sinə ağrıları, yüksək təzyiq, qanda şəkərin qəfil yüksəlməsi və ya azalması kimi sağlamlıq problemləri ön plana çıxır.

Bu dövrdə şəkər xəstələri qidalanmalarına daha çox diqqət yetirməlidirlər. Ürək sağlamlığı baxımından yağlı, qızardılmış yeməklər, şirniyyatlar və xəmir xörəkləri kimi yüksək kalorili qidaların istehlakı zamanı həddi aşmamaq lazımdır. Bəzən bunlardan hətta az miqdarda yemək belə mənfi nəticələrə səbəb ola bilər. Buna görə də şirniyyat və xəmir məhsullarının istehlakından çəkinmək lazımdır.

Bayram səhəri günə yüngül səhər yeməyi ilə başlamalı, qızardılmış və ya qovurma üsulu ilə bişirilən yeməklərdən uzaq durmalı, duz az olan pendir, zeytun və qaynadılmış yumurta qəbul edilməlidir. Mümkün qədər heyvan mənşəli qidadan, eləcə də işlənmiş, şəkəri yüksək olan qidalardan uzaq durmalı, paxlalı və tərəvəzli yeməklərə üstünlük verilməlidir.

**M.Əzimova yalnız şirniyyatların deyil, duzun da orqanizmə zərərli təsirindən söz açdı:**

– Bayramda şəkərlə yanaşı, duzdan da istifadəyə diqqət yetirilməlidir. Əks halda, sağlamlıqla bağlı müxtəlif, xüsusilə də böyrək, ürək, təzyiq problemləri yarana bilər. Qidalara duz əvəzinə qırmızı bibər, kəklikotu və ya nanə ilə dad vermək olar.

Bayramda yeməklərin sayının artması və daha çox yemək istəyi həzm sistemində narahatlıq yarada bilər. Mədə pozğunluğunun qarşısını almaq üçün bütün yeməklər yavaş-yavaş və yaxşıca çeynəməklə yeyilməlidir. Yemək zamanı mədə birdən yüklənməməli, az-az yeməyə diqqət edilməlidir. Nanə və ya çobanyastığı çayları da həzmi yaxşılaşdıra bilər.

Bayram günlərində şəkərli içkilərin, çay və qəhvənin həddindən artıq istehlakı da sağlamlığa zərərli ola bilər. Məsələn, çay və qəhvənin çox istehlakı, xüsusilə, ürək xəstələri üçün zərərlidir, çünki ürək döyüntüsünün və qan təzyiqinin artmasına səbəb olur. Adi sudan yetərincə istifadə etməmək başgicəllənməsi, yorğunluq kimi şikayətlərə səbəb olur. Bayram günlərində şəkərli və qazlı içkilər yerinə bol su içilməlidir.

Eyni zamanda, onu qeyd etmək lazımdır ki, tərkibində bol miqdarda şəkər, un və yağ olan desertlər piylənmənin ən mühüm səbəbidir. Xüsusilə, nişastalı şəkər və marqarinlə hazırlanan paxlava



kimi şərbətli desertlər sağlamlığa zərərlidir. Marqarin və trans yağlardan istifadə edilməklə hazırlanan xəmir məmulatlarından, eləcə də pizza kimi hazır qidalardan da çəkinmək lazımdır. Çünki onların kalorisi yüksək, qida dəyəri isə aşağıdır. Doymuş yağ və nişasta əsaslı şəkər, bel və boyun nahiyəsində qısa müddətdə piy kimi yığılır, həmçinin şəkər xəstəliyinə səbəb olur.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Masallıda "yaşıl" təntənə



**Ramazan bayramı cənub bölgəsinin ən böyük rayonlarından olan Masallıda da fərəh və sevinclə qeyd edilir. Hər tərəfdə abadlıq işləri görülür, səliqə-sahman yaradılır, ağsaqqal və ağbirçəklər, eləcə də sosial qayğıya ehtiyacı olanlara baş çəkilir.**

Ötən günlərdə də bayram öncəsi rayonun bir çox ərazilərində təmizlik işləri görülüb, yollar cari təmir edilib. Rayonun Çaxırlı kəndi ərazisində icra nümayəndəliyinin təşkilatçılığı, bələdiyyə və kənd sakinlərinin dəstəyi ilə 3 kilometrlik yol qreyderlə hamarlanıb, yüzlərlə metr sahəyə çınqıl döşənərək yayılıb. Bədəlan kəndində I Qarabağ müharibəsi şəhidi Davud Qulamovun adına olan küçə cari təmir edilib, Bakı–Astara yolunun Təklə ərazisindən keçən dolaylarında isə ağacəkmə aksiyası təşkil olunaraq, 600-dən çox şam ağacı basdırılıb, 1 kilometr uzunluğunda kənddaxili yol sakinlərin köməyi ilə qaydaya salınıb.

Təklə kəndində rayon rəhbərliyinin əhali ilə görüşündə icra hakimiyyətinin başçısı Araz Əhmədov camaatı bayram münasibətilə təbrik edib, vətəndaşları narahat edən bütün məsələlərin diqqətdə saxlandığını bildirib. Görüş zamanı qaldırılan məsələlərdən bir neçəsi yerindəcə həll olunub, digər məsələləri operativ araşdırmaq barədə müvafiq qurumlara tapşırıqlar verilib.

Ərkivan qəsəbəsində isə müqəddəs Ramazan ayının və orucluğun başa çatması münasibətilə xeyriyyə aksiyası keçirilib. İştirakçılar əvvəlcə qəsəbənin mərkəzindəki "Şəhidlər Parkı"nı ziyarət edib, abidə kompleksinin qarşısına gül dəstələri düzüb və Vətən uğrunda döyüşlərdə canlarından keçmiş qəhrəmanların ruhuna dualar oxuyublar.

Sonra bayram aksiyası "Həsənəküçə mərasim evi"ndə davam edib. "Ərkivan Xeyriyyə Cəmiyyəti"nin sədri Cəfər Cəfərov çıxışında bildirib ki, aksiya ehtiyacı olan hər kəsi sevindirmək məqsədi daşıyır. Şəhid atası Habil Rəhimov, ağsaqqal Səyədulla Abbasov Ramazanın fəzilətlərindən danışıb, bu bayramın milli-dini və mənəvi dəyərlər sistemində xüsusi yeri olduğunu vurğulayıblar. Natiqlər qəsəbə sakinləri adından aksiyanın təşkilatçılarına minnətdarlıqlarını bildiriblər. Daha sonra xeyriyyə cəmiyyətinin könüllüləri bol nemətli 210 sovqat bağlamasını şəhid ailələri və qazilər də daxil olmaqla, qəsəbənin aztəminatlı ailələrinə çatdırıblar.

***Ə.ƏLİYEV***
***XQ***






# Uşaqlara "Ulduz" töhfəsi

**Azərbaycan Yazıçılar Birliyinin "Ulduz" aylıq ədəbi-bədii jurnalının növbəti sayı işıq üzü görüb. Dünya uşaq ədəbiyyatına həsr olunan fevral–mart sayı jurnalın yaradıcı heyəti ilə AMEA Ədəbiyyat İnstitutu uşaq ədəbiyyatı şöbəsinin birgə layihəsi əsasında hazırlanıb.**



Jurnal Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, dosent Elnarə Akimovanın "Gecələr səmaya bax, bütün ulduzlar çiçəkləyəcək..." adlı ön sözü ilə açılır. Ardınca tanınmış tənqidçi Cavanşir Yusiflinin təqdimatında "Eqzüperinin duası" və Antuan Dö Sənt Eqzüperinin "Balaca şahzadə"sindən üç fəsil dərc olunub. Hədiyyə Şəfaqət isə Rey Bredberinin "Zəncirotu şərabı" romanı əsasında yazdığı "Əjdaha şərabı"nı oxucularla bölüşür. Səməd Behrənginin "Balaca qara balıq" mənzum nağılı da "Ulduz"un bu sayında yer alıb.

Uşaq dünyasının özəlliklərini göstərən və böyüyən nəslin ədəbi zövqünün daha yaxşı formalaşmasına xidmət edən bu sayda Türkiyənin mühacir yazıçısı, tərcüməçisi və publisisti, Almaniya Yazarlar Birliyinin üzvü, AYB-nin fəxri üzvü Orxan Aras Jücel Feyzioğlunun uşaq kitabları haqqında "Nağılına sevgi qoşan adam" yazısını təqdim edib. Əziz Nesin isə "Abidəsi qoyulan milçək"lə yad edilir. Jurnalda Türkiyənin daha bir məşhur uşaq yazıçısı Nur Dombaycıyla Cavid Qədirin müsahibəsi uşaq dünyasının əlvan boyalarına işıq tutur.

Azərbaycan klassiki Süleyman Sani Axundovun "Əhməd və Məleykə" nağılı, "Klassik uşaq ədəbiyyatından seçmələr" uşaq ədəbiyyatının inciləri kimi təqdim olunur. Jurnalın bu sayında Azər Turan oxucuları "Toğrul Nərimanbəyovun nağıl ağacı, yaxud Teymur Elçinin yaratdığı mifik təsəvvürlər dünyası"na aparır. Sevinc Nuruqızı da "Uşaq ədəbiyyatında sevgi etirafı" yazısı ilə xoş ovqat yaradır.

Reyhan Yusifqızının "Dünya dəyişdi, bəs, uşaq ədəbiyyatı dəyişikliklərə uyğunlaşdımı?", Mətanət Vahidin "Kitab – xəyal gücü sərhədsiz olan alternativ dünyadır", filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlının "Zəfərin uşaq ədəbiyyatında şöləsi" yazıları, Britaniya və Amerika uşaq şerindən seçmələr, Əhməd Cəmilin "Can nənə, bir nağıl de" şeiri, Sevinc Elsevərin "Kinomuzda uşaqlar" araşdırma yazısı, Hans Kristian Andersenin həyatı və "Balaca İdanın çiçəkləri" nağılı, Nurlana İşığın "Uşaq məyusluğunun həqiqəti" yazısı da jurnalın bu sayında yer alır.

"Dərgidə sərgi"də Əzizə və Dəniz Bəhruzlular balacaları özlərinin rənglər dünyasına qovuşdururlar.

***Ə.DOSTƏLİ***
***XQ***

# Qarabağ zəfərimiz səhnəmizi və milli ekranı yeni zirvəyə yönəldib

**O, ölkənin müxtəlif teatrlarının səhnələrində həm klassik, həm də müasir dramaturqların onlarca əsərinə quruluş verib. Özü bunu etiraf etməsə də, həm də istedadlı aktyordur. "Qəm pəncərəsi" və "Ölülər" filmlərində yaddaqalan obrazlar yaradıb. "XQ"nin həmsöhbəti Bakı Bələdiyyə Teatrının baş rejissoru, Xalq artisti, "Şöhrət" ordenli Mərahim Fərzəlibəyovdur.**

**– Xoş gördük, Mərahim müəllim! Söhbətimizə ondan başlayaq ki, keçən il Teatr Forumunun iştirakçısı olmusunuz. Ötən bir il ərzində həm çalışdığınız yeni kollektivdə, həm də, ümumiyyətlə, səhnəmizdə yeniliklər varmı?**

– Teatr Forumunun keçirilməsi, bütövlükdə, incəsənətimiz üçün önəmli hadisədir. Rejissorlar, aktyorlar, teatr tənqidçiləri bir araya toplaşıb təcrübələrini bölüşdülər, tamaşaları təhlil etdilər. Yəni, sənət ocaqları arasında əlaqə yaranır. Bunun özü çox yaxşı haldır. Yəqin ki, bu forum davamlı olacaq və milli teatr sənətinə özünün töhfəsini verəcək. Forumda dünyanın aparıcı teatrlarındakı mövcud vəziyyət müzakirə olundu, eləcə də sənət adamları yeniliklərdən hali oldular. Rejissor, aktyor gərək dünyanın aparıcı ölkələrindəki teatr proseslərindən xəbərdar olsun ki, yeni tendensiyaları yaradıcılığına gətirə bilsin. Dramaturgiyanın inkişafı çox əhəmiyyətli məsələdir. Çünki hər şey sözdən başlayır.

**– Mədəniyyət naziri forumdakı çıxışında vurğulamışdı ki, məqsəd sahənin peşəkarlarını bir araya gətirmək, problemləri birgə müzakirə etmək və vahid platforma yaratmaqdır...**

– Əslində, bizim teatr mühitinin vahid platforması elə Teatr Xadimləri İttifaqıdır. Orada yığışıb teatrların qayğılarından danışa, fikir mübadiləsi apara bilərik. Bu gün dramaturgiyada, rejissor, aktyor sənətində mövcud problemləri çəkinmədən dilə gətirib, onların həlli yollarını tapmağa çalışmalıyıq. Məncə, vahid platforma deyilən şey elə sənətkarların bir yerə toplaşmasıdır ki, bu da mümkünsüz deyil. Sənətkarların bir araya gəlmələri, ünsiyyətdə olmaları sonda sənətin inkişafı deməkdir.

**– Şəxsi yaradıcılığınızdan danışaq. Suraxanı rayon Mədəniyyət evində kinomexanik köməkçisi Fərzəlibəyov sahə üzrə təhsil aldıqdan sonra Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru oldu. Sonralar Akademik Milli Dram Teatrında, digər səhnə ocaqlarında rejissor işlədi. Yəqin uzunmüddətli səhnə təcrübənizə söykənərək teatrımızın inkişafı yönündə müəyyən fikirləriniz, təklifləriniz var...**

– Leninqrad Dövlət Teatr, Kino, Musiqi İnstitutunu bitirdikdən sonra məni Sumqayıt Dövlət Dram Teatrına baş rejissor təyin etdilər. Bu teatrda müxtəlif janrlarda əsərlərə səhnə həyatı vermişəm. Həmin illərdə Akademik Milli Dram Teatrı yazıçı-dramaturq İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərinin quruluşunu mənə həvalə etdi. Premyerada ümummilli lider Heydər Əliyev də iştirak edirdi. Yadımdadır, finalda Natəvan deyir ki, bu əzablı yolların sonunda azad Azərbaycan görünür. Biz hamımız həyəcanla gözləyirdik ki, Ulu öndər bu sözlərə necə reaksiya verəcək. İlk əl çalan onun özü oldu. Sovet hökumətinin qılıncının kəsəkəs çağında səhnədən bunu demək çox böyük cəsarət tələb edirdi. Söhbəti ona gətirirəm ki, əsas sözdür. Bəli, dramaturji material çox önəmlidir. Amma hər dövrün özünün dramaturgiyası var. Bu gün zamanın nəbzini tutan əsərlər yazılmalı və səhnəyə qoyulmalıdır.

Həmin əsərin uğurlu quruluşu ilə gənc Fərzəlibəyovun Azdramada fəaliyyətinə yaşıl işıq yandırıldı. Əsasən, İlyas Əfəndiyevin pyeslərini səhnələşdirirdi. Məhz İlyas Əfəndiyevin dramaturgiyası ilə teatr rejissoru kimi püxtələşdim. Dramaturgiyasız nə aktyor yetişə bilər, nə də rejissor. Soruşursunuz ki, təklifiniz varmı? Var. Birincisi, yaxşı əsərlər yazsınlar, ikincisi də onların səhnəyə qoyulması üçün normal şərait yaratsınlar...

**– Kinematoqrafiya sahəsində də xidmətləriniz olub. Həm aktyor kimi rol almısınız, həm də film rejissoru olmusunuz...**



– Adətən, teatr rejissoru özünü başqa janrlarda, ən çox da kinoda sınamaq istəyir. Axı gözümüzü dünyaya açandan həyatı filmlərdəki kimi görməyi arzulamışıq. Uşaqlıqdan dramaturgiyanı çox sevmişəm, hətta səkkizinci sinifdə birpərdəli pyes yazmışdım. Dünyaya baxışımızı formalaşdıran, əsasən, kino sənətidir. 1990-cı illərin əvvəllərində Akif Həsənoğlunun ssenarisi əsasında "Mənim ağ şəhərim" filmini çəkdim. Filmi ekoloji fəlakət zonası sayılan Sumqayıtda lentə aldıq. Anadan ölü doğulan körpə məzarlığı Sumqayıtda indi də durur. İntəhası, film boyu heç yerdə şəhərin adı çəkilmir, çünki motiv dünyada ekoloji fəlakətə məruz qalmış bütün şəhərlərin taleyini göstərmək, problemi qabartmaq idi. Filmin qayəsini Ağ şəhər arzusu təşkil edirdi. İllər keçdi və bizim təxəyyülümüzdə yaratdığımız Ağ şəhər reallığa çevrildi. İndi Bakının "ağ şəhər"i var.

Sonra Qarabağdan bəhs edən iki bədii film çəkdim – "Qırmızı qar" və "Canavar balası". Anar Cəlil Məmmədquluzadənin əsərlərinin motivləri əsasında "Qəm pəncərəsi" filmini lentə alanda mənə "uçitel" Həsən obrazını həvalə etdi. Maraqlı, satirik, həm də kədərli bir obraz idi. Bu filmdə məni aktyor kimi görüb bəyənən rejissor Tofiq Tağızadə həmin illərdə ekranlaşdırdığı "Ölülər" filmində Şeyx Əhməd rolunu verdi. Elə bu iki filmlə də aktyorluğum yekunlaşdı. Doğrudur, müəyyən təkliflər oldu, amma dedim daha bəsdir.

İndi kino sahəsində xeyli irəliləyiş var. Gənclər yeni filmlər çəkirlər, amma hələ çox iş görülməlidir. Qarabağ mövzusunda elə ssenarilər yazılmalıdır ki, dünya səviyyəsinə çıxarmağa layiq filmlər çəkilsin. İnanıram ki, Zəfərimizlə bitən 44 günlük Vətən müharibəsi mövzusunda sanballı ekran əsərləri yaranacaq. Bu istiqamətdə yaxşı işlər gedir.

**– Hazırda Bakı Bələdiyyə Teatrının baş rejissorusunuz. Uzun illər məhsuldar işlədiyiniz Akademik Milli Dram Teatrından təkliflər olurmu?**

– Rejissor kimi fəaliyyətimin 40 ili bu teatrla bağlı olub. Quruluş verdiyim tamaşaların sayını itirmişəm. Çox istedadlı aktyor truppası ilə elə gözəl tamaşalar hazırlayırdıq ki... Sonra yeni rəhbərlik orada dəyişikliklərə başladı. Təcrübəli rejissorların hamısı ana teatrdan uzaqlaşdırıldı. Hamımız – Azərpaşa Nemətov, Mehriban Ələkbərzadə, Rövşən Almuradlı, Bəhram Osmanov, Ağakişi Kazımov, Əsgər Əsgərov və mən o teatrın rejissorları idik. Mədəniyyət Nazirliyinin göstərişi ilə işdən çıxarıldıq. Bunu onunla əsaslandırdılar ki, teatra kənardan rejissor cəlb olunmalı, onlara böyük səhnədə özlərini sınamaq imkanı verilməlidir. Bu, Milli Dram Teatrı tarixində yol verilən ən böyük səhv idi. Uzun illərin yetişdirdiyi rejissorlar ana teatrda əl-ələ verib işləyirdilər. Hərəsi bir tərəfə səpələndi. Xalq artisti Amalya Pənahovanın sağlığında Bələdiyyə Teatrında bir neçə tamaşa hazırlamışdım, uğurlu alınmışdı. O, rəhmətə gedəndən sonra qızı, teatrın indiki direktoru Aynur Muxtarova məni Bələdiyyə Teatrına baş rejissor vəzifəsinə dəvət etdi. Bu günlərdə Elçinin "Şekspir" əsərinin motivləri əsasında hazırladığım tamaşanın premyerası oldu. Öz binamız olmadığından təqdimatı Azdramada reallaşdırdıq.

**– Bələdiyyə Teatrında, əsasən, gənclərlə işləyirsiniz. Nəsil dəyişikliyi necə gedir, gənclər sənət estafetini qəbul etməyə hazırdırlarmı?**

– O zaman biz gənc rejissorlar kimi müqtədir sənətkarlarımız Ələsgər Şərifov, Mehdi Məmmədov, Tofiq Kazımovdan görüb-götürürdük. Onların məktəbinin yetirmələriyik. Bu gün də Azərpaşa Nemətovun, Hüseynağa Atakişiyevin, Vaqif İbrahimoğlunun, Bəhram Osmanovun, Ağakişi Kazımovun davamçıları var. İndi biz də estafeti özümüzdən sonra gələnlərə ötürürük. Mənə elə gəlir ki, sənət estafetini istedadlı gənclərimiz layiqincə davam etdirəcəklər.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***





# Yaxın Şərq: savaş haləsi böyüyür

**Bir neçə aydır ki, Yaxın Şərq yenidən çalxalanır. Son aylar bu region dünyanın hərbi aporiyalarının mərkəzinə çevrilməkdədir. Maraqlıdır ki, hərbi eskalasiya iki dövlətlə məhdudlaşmır: İraq, Suriya, Fələstin, Livan, Yəmən … ya birbaşa, ya da dolayısı ilə lokal, lakin münaqişəyə cəlb olunublar. Bu günlərdə İranın bir generalı və digər yüksək rütbəli hərbçilərinin Suriyadakı İran konsulluğuna hücumu nəticəsində həlak olması vəziyyəti son dərəcə gərginləşdirib. İranın ali dini lideri Əli Xameneyi çıxışında demişdir ki, Suriyadakı İran səfirliyinə hücumu ilə bağlı İsrail ağır şəkildə cavabını alacaq.**



Doğrudur, İsrail bu hücumu öz üzərinə götürmədi. Lakin İranın dəstəklədiyi qüvvələrə qarşı hərbi diversiyaları davam etdirəcəyini bildirib. Hər kəsə məlumdur ki, İran hərbçiləri həmin qüvvələri ciddi şəkildə koordinasiya edir. İndi hərbi və siyasi ekspertləri bir sual düşündürür: İran İsrailə birbaşa cavab verəcək, yoxsa yenə şiə təmayüllü proksilər vasitəsilə hücum edəcək? Xameneyinin çıxışından belə məlum olur ki, İran birbaşa zərbə endirməyəcək, illərdir sınaqdan çıxardığı uzunmüddətli münaqişə kursunu davam etdirəcək. Yəni, İraq, Livan və Yəməndən idarə etdiyi hərbiləşmiş siyasi qüvvələr vasitəsilə hücum edəcək? Üç aya yaxındır ki, Suriya, İraq, Yəmən və Livanda cəmləşən bu qüvvələr bölgədəki ABŞ və İsrail ittifaqına dron və raket zərbələri endirirlər. Əksər hücumların qarşısı alınsa belə, bu, İranın ABŞ və İsrailin regionda hərəkətlənməsini məhdudlaşdıran ciddi təzyiqi hesab edilir. Bu baxımdan, İranın İsrailə birbaşa hücumu istisna edilir.

İran da yaxşı anlayır ki, birbaşa hücum münaqişənin coğrafiyasını kəskin şəkildə dəyişər və İsrailin müttəfiqləri, xüsusilə, ABŞ müharibəyə qoşula bilər. Təbii ki, belə olan halda İranın uzun müddət müqavimət göstərə biləcəyi şübhə doğurur. Amma cavabın veriləcəyi də istisna edilmir. Çünki cavabsızlıq SEPAH-ın ölkədə və proksilər arasında nüfuzdan düşməsinə səbəb ola bilər. Bunu İran hakimiyyəti də yaxşı anlayır. Ekspertlər düşünürlər ki, əslində, İsrail İranın birbaşa hücumunu istəyir. Əgər bu hücum baş versə, İsrail İrana qarşı çoxdankı hərbi planını işə salacaq. Bu isə İranın tələyə düşməsi deməkdir. Bu baxımdan İranın birbaşa deyil, İsrailə çəkindirici ola biləcək digər vasitələrlə bir hücum cavabına ehtiyacının olduğu görünür.

Netanyahu hakimiyyəti HƏMAS məsələsini tezliklə bitirmək və Hizbullahla, ya da İranla birbaşa müharibəyə can atır. İran isə hələ ki, sərhədləri yanında müharibə istəmir. Üfüqdə isə bunun üçün hələ ki, iki seçim görünür. Ya Netanyahunun siyasətdən getməsi, ya da İsrailin ətrafındakı ərəb ölkələrindən hansısa biri ilə müharibəyə başının qarışması. İstənilən halda İran və İsrail qarşıdurması heç vaxt indiki qədər aktuallığa yüksəlməyib. Bu isə Yaxın Şərqə müsbət heç nəyi vəd etmir.

*Anar TURAN*
*XQ*


# Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası

## 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Cəmi | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – əyani | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – qiyabi | Fəlsəfə doktoru proqramı üzrə – Dissertantura – Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Elmlər doktoru proqramı üzrə – Doktorantura – Cəmi | Elmlər doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – əyani | Elmlər doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – qiyabi | Elmlər doktoru proqramı üzrə – Dissertantura – Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası | | | | | | | | | |
| 6213.01 | Musiqi sənəti | **2** | | 2 | **1** | | | | |
| | **Cəmi:** | **2** | | **2** | **1** | | | | |

Doktorantura və dissertantura şöbəsi, telefon – 012-493-22-01.
Ünvan – Bakı şəhəri, Şəmsi Bədəlbəyli küçəsi 98.

# BAKI SLAVYAN UNİVERSİTETİ

## 2024-cü il üçün doktoranturaya və dissertanturaya fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Cəmi | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – əyani | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – qiyabi | Fəlsəfə doktoru proqramı üzrə – Dissertantura – Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla | Elmlər doktoru proqramı üzrə – Doktorantura – Cəmi | Elmlər doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – əyani | Elmlər doktoru proqramı üzrə – Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən – qiyabi | Elmlər doktoru proqramı üzrə – Dissertantura – Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 5707.01 | Slavyan dilləri | 2 | 1 | 1 | | 1 | | 1 | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | 1 | 1 | | | | |
| 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid | 1 | | 1 | | | | | |
| 5716.01 | Folklorşünaslıq | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 1 | | 1 | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | | 1 | 2 | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | | | | 1 | | | | |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | | | | | |
| | **Cəmi:** | 8 | 1 | 7 | 4 | 1 | | 1 | |

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Qeydiyyatdan keçən vətəndaşların sənədləri ali təhsil müəssisəsi üzrə təyin edilmiş məsul şəxs, doktorantura təhsili və tədqiqatların təşkili şöbəsinin əməkdaşı tərəfindən yoxlanılıb təsdiq edilməlidir.

Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi 2024-cü il aprelin 16-dan başlayaraq, mayın 15-dək davam edəcəkdir. DİM-də Xarici dil fənni imtahanını müvəffəqiyyətlə vermiş şəxslər (fəlsəfə doktoru proqramı üzrə müraciət edən iddiaçılar) növbəti mərhələlərə buraxılacaqlar. Fəlsəfə fənni üzrə (yalnız fəlsəfə doktoru proqramı üzrə doktoranturaya sənəd verən iddiaçılar) imtahanın 2024-cü il sentyabrın 2, 3 və 4-də, ixtisas imtahanının isə sentyabrın 9, 10 və 11-də keçirilməsi nəzərdə tutulmuşdur.

**Əlaqə telefonu– +994 (12) 5990870 (daxili: 213)**
**Ünvan– AZ 1014, Bakı şəhəri, S.Rüstəm küçəsi 33.**
**Elektron ünvan– doktorantura@bsu-uni.edu.az**

## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

cəmiyyətə məxsus nəqliyyat vasitələri (minik və yük avtomobilləri) üçün xidmətlərin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 8 may 2024-cü il saat 16.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3706).

Ünvan: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

# BAKI BİZNES UNİVERSİTETİ

## 2024-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya

# QƏBUL ELAN EDİR

Bakı Biznes Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları”na əsasən 2024-cü il üçün aşağıdakı ixtisaslardan fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul elan edir:

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktorluğu proqramı üzrə – Doktoranturaya qəbul planı – Cəmi | O cümlədən: Dövlət sifarişli və ödənişli əsaslarla – əyani | O cümlədən: Dövlət sifarişli və ödənişli əsaslarla – qiyabi |
|---|---|---|---|---|
| 5303.01 | Mühasibat uçotu | 3 | 1 | 2 |
| 5308.01 | Ümumi iqtisadiyyat | 2 | 1 | 1 |
| 5312.01 | Sahə iqtisadiyyatı | 2 | 2 | - |
| | **Cəmi:** | **7** | **4** | **3** |

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, oradan “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək qeydiyyatdan keçməlidirlər.

**Sənəd qəbulu 2024-cü il aprelin 16-dan mayın 15-dək həyata keçiriləcəkdir.**

“Xarici dil” fənni üzrə imtahanın keçirilməsi 2024-cü il iyunun 9-da nəzərdə tutulmuşdur (Dövlət İmtahan Mərkəzi tərəfindən). “Xarici dil” imtahanını müvəffəqiyyətlə vermiş şəxslərin “Fəlsəfə” fənni üzrə imtahanda iştirakı 2024-cü il sentyabrın 2,3 və 4-də, ixtisas imtahanının keçirilməsi isə sentyabrın 9,10 və 11-də nəzərdə tutulmuşdur.

Əlavə suallar üçün Bakı Biznes Universitetinə müraciət etmək lazımdır.
**Əlaqə telefonu-** (+99412) 431 91 18 (dax. 112/123) .
Ünvan- AZ1122, Bakı şəhəri, H.Zərdabi küçəsi 88a.

***REKTORLUQ***

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali təhsil və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi cari il aprelin 16-dan başlayacaqdır. 15 may 2024-cü il sənəd qəbulu üçün son tarixdir.

**Fəlsəfə doktoru proqramı üzrə:**

**Doktorantura (dövlət sifarişli və ödənişli əsaslarla):**
**Təsviri sənət 6215.01 – 1 yer, qiyabi.**
**Dekorativ tətbiqi sənət 6218.01 – 1 yer, əyani.**
**Dissertantura (büdcə hesabına və ödənişli əsaslarla):**
**Təsviri sənət 6215.01 – 1 yer.**
**Dekorativ tətbiqi sənət 6218.01 – 1 yer.**
**Əlaqə nömrəsi – 012-567-91-83.**
**Ünvan – Bakı, H.Əliyev prospekti 26.**

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 74 (30478) 10 aprel 2024-cü il, çərşənbə

# Güləş–Azərbaycan idmanının dünya şöhrəti və öyüncü

**Şübhəsiz, qədim və zəngin ənənələrin nəticəsidir ki, Sovet dövründə də, dövlət müstəqilliyimiz bərpa olunduqdan və Azərbaycan idmanının ən yaxşı nümayəndələri Olimpiya oyunlarında vahid komanda şəklində, öz milli bayrağımız altında çıxış etməyə başladıqdan sonra da respublikamıza ilk medalları güləş ustaları gətirmişlər. Həm də çox maraqlıdır ki, 1952-ci ildə Helsinkidə, 1996-da ABŞ-ın Atlanta şəhərində xalqımızı olimpiya mükafatları ilə sərbəst üsulla güləşənlər sevindirmişlər–Finlandiya paytaxtında Rəşid Məmmədbəyov, okeanın o tayında isə Namiq Abdullayev.**




Fərq yalnız bundadır ki, Məmmədbəyov 72 il əvvəl fəxri kürsüyə Sovet İttifaqının yığma komandasının üzvü kimi yüksəlmiş, Abdullayev isə ilk Olimpiada medalının sevincini müstəqil Azərbaycan Respublikası komandasının tərkibində yaşamışdır. İdman ictimaiyyətimiz də haqlı olaraq, bu iki görkəmli şəxsiyyət haqqında həmişə dərin hörmət və ehtiramla söz açır. Doğrudan da, əbəs yerə demirik ki, yaxşılıq unudulmur. Hər iki güləşçinin ölkə idmanına verdiyi töhfələr milli sərvətimizdir.

R.Məmmədbəyov Finlandiya paytaxtında 57 kq çəki dərəcəsində onu fəxri kürsünün ikinci pilləsinə aparan yolda beş rəqibini–İran, ABŞ, Macarıstan, Hindistan və İsveçrə güləşçilərini məğlubiyyətlə barışmağa məcbur etmiş və yalnız final görüşündə Yaponiya təmsilçisinə uduzmuşdu.

Həyatla çox tez, cəmi 43 yaşında vidalaşan Rəşid Qarabəy oğlu Helsinkidə qazandığı böyük uğura görə SSR Əməkdar idman ustası adına layiq görülmüşdü və indi idman tarixində olimpiya medalı qazanmış ilk azərbaycanlı kimi yaşayır.

Sərbəst güləşdə Azərbaycanın olimpiya medalları estafetini R.Məmmədbəyovdan qəbul edən N.Abdullayev isə ikiqat qəhrəmanlıq nümunəsi göstərmişdir. O, Atlantada 52 kq çəki dərəcəsində qazandığı gümüş mükafatla kifayətlənməmiş, dörd il sonra Avstraliyanın Sidney şəhərində XXVII Olimpiya Oyunlarında finalda ABŞ təmsilçisi Samuel Hensona qalib gələrək, bu dəfə 55 kq çəki dərəcəsində qızıl medala sahib olmuş, möhtəşəm qələbəsi şərəfinə nəhəng idman sarayında müstəqil Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Yadımdadır, 1996-cı ildə olimpiyaçılar Atlantadan qayıtdıqdan dərhal sonra Azərbaycan Prezidenti Heydər Əliyev nümayəndə heyətimizi Prezident Sarayında qəbul edib, ölkənin idman şərəfini layiqincə qoruduqlarına görə atletlərə minnətdarlığını bildirdi, Abdullayevin qazandığı və Olimpiadanın yekun cədvəlində respublikamızı 200-ə qədər ölkə arasında 61-ci yerə yüksəldən gümüş medalı qızıl mükafata bərabər tutdu, həmin medalın böyük əhəmiyyətini xüsusi vurğuladı.

"Şöhrət" ordeni Namiq Yadulla öğlu Abdullayev hazırda da respublikamızda güləşin daha da inkişafına sədaqətlə xidmət edir, Azərbaycan Güləş Federasiyası İcraiyyə Komitəsinin üzvü kimi bizim yerlərdə hələ qədim vaxtlardan çox sevilən idman növünün zəngin ənənələrinin artırılması və daha da möhkəmləndirilməsi işinə layiqli töhfələr verir.




N.Abdullayevin Atlanta və Sidney uğurlarından sonra da elə bir Olimpiada olmayıb ki, Azərbaycan güləşçiləri fəxri kürsüdə təbrikləri qəbul etməsinlər. Afina–2004-də yunan-Roma güləşçisi Fərid Mansurovun, London–2012-də sərbəst güləşənlər Toğrul Əsgərov və Şərif Şərifovun ölkəmizə çempion kimi qayıtdıqlarını, Mariya Stadnikin iştirak etdiyi bütün dörd Olimpiya oyunlarında mükafatçılar sırasında yer tutduğunu, Rio-de-Janeyro–2016-da qazanılmış 18 medaldan 9-nun güləş ustalarımızın payına düşdüyünü xüsusi qeyd etmək olar.

Yazımız finişə yaxınlaşarkən deyim ki, onu indi qələmə almağımıza, iyirminci əsrin ortalarında və sonunda Azərbaycana ilk olimpiya medallarını güləşçilərin gətirdiyini xatırlamağa Bakıda, Milli Gimnastika Arenasında yenicə başa çatmış Paris Olimpiadası–2024-ə lisenziya xarakterli Avropa olimpiya təsnifat turniri sövq etdi.

Üç gün davam edən və 7 aprel axşamında yekunlaşan yarış əsl güləş bayramına çevrildi. Qitəmizin ən yaxşı xalça ustalarının gərgin görüşləri təkcə iştirakçılara və onların məşqçilərinə deyil, on minlərlə tamaşaçıya da həyəcanlı anlar yaşatdı.

Bakı turnirindənək Azərbaycanın güləş ustalarının hesabında üç lisenziya var idi. Onlara əvvəlki yarışlarda sərbəst üsulla güləşən Maqomedxan Maqomedov (97 kq), yunan-Roma güləşçiləri Sənan Süleymanov (77 kq) və Həsrət Cəfərov (67 kq) sahib olmuşdular. İndi isə "sərbəstlər" Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Turan Bayramov (74 kq), Osman Nurməhəmmədov (86 kq) və Georgi Meşvildişvili (125 kq) bir gündə Azərbaycanı daha beş lisenziya ilə sevindirərək, idmanın bu növündə olimpiya vəsiqələrimizin sayını 8-ə çatdırmışlar.

Amma bu da son hədd deyil. Qarşıda güləşçiləri daha bir sınaq gözləyir. Mayda İstanbulda təşkil ediləcək dünya olimpiya təsnifat turnirində XXXIII Yay Olimpiya Oyunlarına lisenziyaların sayını artırmaq imkanı olacaq. Ümid edək ki, yunan-Roma güləşçilərimizin və qadın komandası üzvlərinin İstanbul xalçası üzərində çıxmaq üçün öz hazırlıqlarındakı çatışmazlıqları aradan qaldırıb, turniri yüksək idman formasında qarşılamağa istəqalığı da çatacaq, bacarığı da.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## "Qarabağ" 13 pillə irəliləyib

**Peşəkar futbol klublarının yeni dünya reytinqi açıqlanıb.**

Azərbaycanın 3 təmsilçisi Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) tərtib etdiyi siyahıda yer alıb.



176,5 xalla 48-ci sıraya yüksələn "Qarabağ" ötən reytinqlə müqayisədə 13 pillə irəliləyib. "Neftçi" (62 xal) 1, "Sabah" (58,75) isə 4 pillələk sıçrayışla müvafiq olaraq 377-ci və 413-cü yerlərdə qərarlaşıblar.

"Mançester Siti" (401 xal) klubu liderdir. İkinci pilləni İspaniya "Real Madrid"i (332 xal), üçüncü yeri isə İtaliya "İnter"i (311 xal) tutur.

## İdmançımız "Maksima masters"in qalibi olub

**Azərbaycan idmançısı Aydın Əlibəyov Rusiyanın paytaxtı Moskvada atçılığın dresaj növü üzrə keçirilən "Maksima masters" çempionatının qalibi olub.**



Yarışda 3 atla iştirak edən təmsilçimiz cavan atlar (5-7 yaş) arasında təşkil olunan yarışda 4 qızıl, böyük atlar arasındakı turda ("Qızıl Tur") isə 2 qızıl və 1 bürünc medala sahib çıxıb. Bununla da, yekun nəticəyə görə, Azərbaycan MDB dövlətləri arasında "Maksima masters" çempionatı tarixində cavan atlar arasında keçirilən yarışlar üzrə ən yüksək qiymətə layiq görülən ilk ölkə, A.Əlibəyov isə ilk idmançı olub.

Komandanın digər üzvü Aqata Zəhrabəyova isə Almaniyanın Troysdorf şəhərində ponilər arasında keçirilən beynəlxalq yarışda 69.7 faiz göstərici ilə ikinci yeri tutub.

## 14 boks hakimimiz "1 ulduz"a yüksəlib

**Boks üzrə 1 ulduz kateqoriyalı beynəlxalq hakimlik imtahanının nəticələri açıqlanıb.**




Bakıda "Böyük İpək yolu" çərçivəsində baş tutan sınaqda iştirak edən 17 azərbaycanlı ədalət təmsilçisindən 14-ü Beynəlxalq Boks Assosiasiyasından müsbət cavab alıb. Nəticədə, hakimlərimiz Fərhad Rəhmanov, Məsməxanım Səlimova, Sərraf Səmədov, Asif Məmmədov, Nəsrəddin Məmmədov, İlqar Qasımzadə, Stanislav Krılov, Ramiz Yangəliyev, Samir Baxışov, Babaəli Səlimzadə, Şaban Şahpələngov, Famil Babayev, Eltac Əliyev və Laçin Baxışovun beynəlxalq kateqoriyası 1 ulduza yüksəlib. Eyni vaxtda 14 referimizin dərəcə alması dünya praktikasında ilkdəndir.

Qeyd edək ki, Azərbaycan Boks Federasiyası həm milli, həm də beynəlxalq kateqoriyaya malik hakimlərimizin peşəkarlıq səviyyəsinin artırılması, onların sayının çoxaldılması istiqamətində işləri davam etdirir.

*Leyla SABİRQIZI*
*XQ*

**Sağlamlıq**

## "B" vitamini – ürəyin məlhəmi

**Ürək sağlamlığı üçün ən vacib vitaminlərdən biri B1-dir. Bu barədə açıqlama verən rusiyalı məşhur həkim Yelena Malışeva deyib ki, tiamin adlanan B1 vitamini B6, B9 vitaminləri kimi populyar deyil. Amma onun yetməzliyində damar sisteminin zədələnməsi təhlükəsi yaranır.**

Hətta B1 vitamininin əskikliyi zamanı ürək çatışmazlığı da yaranır. Defisit təbii ki, gündəlik rasionda həmin vitaminlə zəngin qidaların azlığı ilə əlaqədardır.

Həkim bildirib ki, gündəlik menyuda da B1 vitamininin mənbəyi olan ərzaqlar seçilməlidir. Bunlar düyü, vələmir, spirulina, toxumlar, qoz, badam, fındıq, yarmalar, taxıllardır.

Orqanizm üçün başqa heç bir vasitə ilə vitamin sintez olunmur. B1 defisitinin əsas əlaməti psixoemosional pozuntu və sinir sistemində problemlərdir.




Depressiya, təşviş, beyin fəaliyyətinin pisləşməsi, yaddaş zəifliyi, nevroz və bu kimi xəstəliklərin səbəbi də məhz orqanizmdə B1 vitamininin çatışmazlığıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

✓ *2023-cü ildə Azərbaycan Texniki Universitetinin nəzdində Rabitə və Nəqliyyat Kolleci tərəfindən Nağıyev Əlisəyla Namik oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

## Abşeronda və Aranda yağmursuz və dumanlı, dağlıq ərazilərdə yağıntılı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 10-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Cənub-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 7-12° , gündüz 14-19° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq.**

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Axşam ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 8-12°, gündüz 14-19°, dağlarda gecə 0-5°, gündüz 7-12° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Rəsm yüzlüyünün "ən məyusedici şedevr"i

**Parisdəki Luvr muzeyini bəzəyən Leonardo da Vinçinin şah əsəri olan "Mona Liza" gözlənilmədən "dünyanın ən məyusedici şedevri" adını qazanıb. "CouponBirds" internet platformasının analitikləri 100 ən məşhur rəsm əsəri ilə bağlı muzeyləri ziyarət edənlərin rəylərini öyrəndikdən sonra bu qənaətə gəliblər.**

"CouponBirds" 18 mindən çox rəyi araşdırdıqdan sonra müəyyən edib ki, "Mona Liza" tablosu 37 faiz mənfi şərh alıb. Bu, tədqiq edilən əsərlər arasında orta göstəricidən iki dəfə çoxdur.

Tablonun ən yüksək bədii dəyərinə baxmayaraq, Luvr muzeyinin bir çox ziyarətçiləri "Cokonda" ilə görüşdən məyus ayrılırlar. "CouponBirds"in analitikləri bunu qeyri-mütəşəkkil turist izdihamı, yüksək bilet qiymətləri və tablo haqqında əvvəlcədən şişirdilmiş gözləntilər ilə əlaqələndirirlər.

Əslində, ziyarətçilər rəsmə baxmaq üçün tablonun önündə izdihamla qarşılaşırlar. Nəticədə, şedevrlə görüş təəssüratları gözlənildiyi qədər canlı olmaya bilər.

Mənfi reytinqdə ikinci yeri Luvr muzeyində nümayiş etdirilən Yevgeni Delakruanın "İnsanlara rəhbərlik edən azadlıq" tablosu tutub. Üçüncü yerdə isə Nyu-Yorkdakı Müasir İncəsənət Muzeyində göstərilən Salvador Dalinin "Yaddaşın davamlılığı" əsəridir.



*FİDAN*
*XQ*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan müxtəlif qaz və texniki məhlulların satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 19-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.
Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 3874 |
| SİFARİŞ | 715 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00